Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 224 (7951) ŞƏNBƏ, 6 oktyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# Zəfər yürüşünə az qalıb

## Səngərdəki əsgər: "Ali Baş Komandanın övladının müqəddəs hərbi geyimdə bizimlə çiyin-çiyinə dayanması döyüş ruhumuzu daha da yüksəldib"

**- Düz, bir ildən çoxdur ki, hər gün saatlarla gözümü də qırpmadan bu kiçik pəncərədən baxıram qarşı tərəfə. Qarlı-şaxtalı, çox qızmar isti günlər keçirmişəm bu səngərdə. Heç kimdən inciməmişəm, heç peşmançılıq hissi də keçirməmişəm. Çünki Vətənin hər qarış torpağını qoruduqca özümü xalqıma, yurduma sadiq əsgər kimi hiss edirəm. Amma hərdən qəzəbləndiyim anlar olur. Bilirsiz, niyə?!**

**Gecənin qaranlığında qarşı tərəfdə tək-tük yanan işıqları, hərəkət edən maşınları görəndə qəzəb hissi içimi titrədir. Çünki suyu, havası, torpağı canımız qədər əziz olan Vətən torpağının bir hissəsidir oralar. Cəmi bir neçə metr irəlidə dayanan düşmənin tapdağı altında olması ilə barışa bilmirsən. Lakin, eyni zamanda, onu bilirəm ki, bu qəzəb səngərdəki hər bir əsgərin döyüş ruhunu daha da artırır. Aprel döyüşlərində tarix yazan hərbi hissənin əsgərləriyik və biz də gələcəkdə adımızın fəxrlə çəkilməsini istərdik. Vətən üçün savaşmaq şərəfdir. Həm də qürurvericidir, ona görə ki, zəfərə gedən yolda Ali Baş Komandan İlham Əliyevin oğlu Heydər Əliyevlə birlikdə ön xətdə çiyin-çiyinə qəhrəmancasına döyüşüb tarix yazacağıq...**

### Vətən üçün yaşanan ömür ölümsüzdü...

Bu, səngərdə döyüş tapşırığını yerinə yetirən igid Azərbaycan əsgərinin fikridir. Hər zaman olduğu kimi, ayıq-sayıq Vətən keşiyindədir. Vətənini, torpağını qoruyan, milləti, xalqı, bayrağı uğrunda döyüşən hərbçi həmişə gümrah, saf, sağlam və mənən təmizdir.

Onlar ön cəbhədə düşmənlə üz-üzə Vətənin keşiyində dayanaraq müqəddəs borclarını yerinə yetirirlər. Yaxşı anlayırlar ki, bir qarış torpaq uğrunda neçə-neçə igid övladımız canını qurban verərək şəhidlik zirvəsinə ucalıb. Onlar bu torpağı canı qədər sevdiyi üçün, göz bəbəyi kimi qoruduğu üçün ölümün gözünə dik baxa biliblər. Çünki nə Vətənsiz millət, nə də millətsiz Vətən ola bilər. Elə görüşünə getdiyimiz Vətən oğullarının çöhrələrində sanki bu sözlər yazılmışdı: "Vətən üçün yaşanan ömür ölümsüzdür".

Aprel döyüşlərində böyük şücaət göstərmiş Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin əsgərləri Vətənin müdafiəsində kişi kimi duracaqlarına, işğal altındakı torpaqlarımızın azad olunması uğrunda son damla qanlarına qədər döyüşəcəklərinə and içdikləri gündən bu fəxarəti yaşamağa başlayıblar.

### Ordunun gücü şəxsi heyətin ruh yüksəkliyindən asılıdır

Ön xətdəyik... Düşmənlə ən yaxın məsafə 70 metrdir. Bölmə komandiri zabit Ayxan Babayev döyüş tapşırığı növbəsinə gedən heyəti təlimatlandırıb yola salır. Müddətdən artıq xidmət edən kiçik çavuş Elvin Nadirli isə dəyişdirici vəzifəsini yerinə yetirir və postlardan qayıdan əsgərlər mini kazarmaya daxil olub istirahət edirlər.

Mənzərəni kənardan izlədikdən sonra salamlaşıb öncə burada əsgərlər üçün yaradılan şəraitlə tanış oluruq. Əsgər kazarmasında səliqə-sahman, istirahət guşəsi, televizor, müxtəlif dama oyunları, Milli Qəhrəmanlarımızın döyüş yolundan bəhs edən stendlər mövcuddur. Burada anbar, mətbəx, sanitariya və rabitə qovşağı da var.

Zabit Ayxan Babayev postlardan qayıdıb istirahət edən əsgərləri süfrə arxasında toplayıb səmimi söhbətə başlayır. Özü 6 ildir hərbi qulluqçu olsa da, burada 1 il 2 aydır ki, xidmətdədir. Şəxsi heyətlə necə işləməyi, necə davranmağı artıq yaxşı bilir. Deyir ki, əsgərlərin gündəlik qidası hərbi hissədən gətirilir. Postdan qayıdan əsgərlər rahat çarpayılarda uzanaraq televizora baxır, dincəlir, asudə vaxtlarda şahmat, dama oynayırlar. Bir sözlə, istirahətlərini səmərəli keçirirlər.

*Ardı 3-cü səh.*

## "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 21 fevral tarixli 679 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 769 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1103-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

"Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 21 fevral tarixli 679 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 769 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 489; 2004, № 8, maddə 616; 2005, № 1, maddələr 15, 19; 2006, № 9, maddə 743; 2008, № 7, maddələr 612, 619, № 8, maddə 719; 2009, № 4, maddə 226; 2014, № 10, maddə 1213; 2015, № 9, maddə 977; 2016, № 1, maddə 44; 2017, № 3, maddələr 358, 381; 2018, № 6, maddə 1220) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində xidməti və mülki silahın satış Qaydaları"nın 16-cı hissəsinə "Fövqəladə" sözündən sonra "və ya hərbi" sözləri əlavə edilsin və həmin hissədə "Azərbaycan Respublikası Prezidentinin qərarına əsasən" sözləri "Fövqəladə vəziyyət haqqında" və "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq" sözləri ilə əvəz edilsin.

2. Həmin fərmanla təsdiq edilmiş "Silahın geri alınması Qaydaları"nın 13-cü hissəsində "Müstəsna hallarda fövqəladə" sözləri "Fövqəladə və ya hərbi" sözləri ilə, "Azərbaycan Respublikası Prezidentinin qərarına əsasən" sözləri "Fövqəladə vəziyyət haqqında" və "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq," sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 oktyabr 2018-ci il*

## "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 900-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 390, 2017-ci il, № 3, maddə 373) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2-ci bənddə "dördüncü hissəsində" sözlərindən sonra ", 13-1.3-cü maddəsində" sözləri əlavə edilsin.
2. 2.3-cü bənddən "13-1.3-cü," sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 oktyabr 2018-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 dekabr tarixli 1774 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 iyul tarixli 161 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 411, № 8, maddə 680; 2007, № 6, maddə 602, № 8, maddə 770, № 10, maddə 947; 2008, № 7, maddə 612, № 11, maddələr 967, 970; 2009, № 10, maddə 779, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2011, № 2, maddə 85; 2012, № 7, maddə 688, № 9, maddə 855; 2013, № 2, maddə 114, № 6, maddə 651, № 9, maddələr 1060, 1061; 2016, № 3, maddə 436; 2017, № 10, maddə 1781; 2018, № 2, maddə 217, № 5, maddə 932) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 8.10-3-cü bənd əlavə edilsin:

"8.10-3. tütündən istifadənin nəticələrindən qorunma sahəsində dövlət siyasətini və dövlət nəzarətini həyata keçirmək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 oktyabr 2018-ci il*



## Prezident İlham ƏLİYEV: "Kənd təsərrüfatı qarşısında duran əsas vəzifə bu sahəni yüksək texnoloji sahəyə çevirməkdir"

# Müasir texnika və texnologiya daha çox və daha keyfiyyətli məhsul deməkdir

**Məlumdur ki, həyata keçirilən genişmiqyaslı islahatların əsas məqsədi ölkənin ümumi inkişafına nail olmaqdır. Bunu isə indiki dövrdə yalnız qeyri-neft sektorunun inkişafı hesabına əldə etmək mümkündür. Hətta Azərbaycanda neft sənayesi iqtisadiyyatın əsasını təşkil etsə də, ümumi inkişaf üçün bütün sahələrin inkişafı vacibdir.**

Kənd təsərrüfatı qeyri-neft sektorunda coğrafiyasına və əhalinin məşğulluğunun əhatəsinə görə üstünlük təşkil edir. Bunun üçün də dövlət son dövrlər aqrar sektorun inkişafına xüsusi diqqət göstərir. Kənd təsərrüfatında hərtərəfli islahatlar həyata keçirilir, fermerlərə dövlət dəstəyi artırılır, o cümlədən güzəştli kreditlər ayrılarkən aqrar sahədə çalışan sahibkarlara üstünlük verilir.

Müasir dünyada aqrar sektorda yüksək məhsuldarlığa nail olmaq üçün qabaqcıl texnika və texnologiyalardan istifadə edilir. Bir çox ölkələr bunun sayəsində torpaq sahələrinin məhdudluğuna və iqlim şəraitinin kənd təsərrüfatı üçün yararsız olmasına baxmayaraq, yüksək məhsuldarlığa nail olurlar. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında aqrar sektorda yüksək texnika və texnologiyaların tətbiqinin əhəmiyyətini qeyd edərək demişdir: "Bir daha demək istəyirəm ki, kənd təsərrüfatı qarşısında duran əsas vəzifə bu sahəni yüksək texnoloji sahəyə çevirməkdir. Bəzilərində belə təsəvvür var ki, kənd təsərrüfatı, necə deyərlər, elə ənənəvi qayda ilə inkişaf edə bilər. Bu, qətiyyən belə deyil. Bu gün dünyada elə texnologiyalar var ki, məhsuldarlığı bir neçə dəfə artırır. Biz həm aqrotexniki tədbirlərlə bağlı texnologiyaları, həm də su ilə təminat texnologiyalarını Azərbaycana gətirməliyik. Elə müasir suvarma sistemləri var ki, hər bir qarış torpaqdan maksimum səmərə ilə istifadə olunur. Bax, bu texnologiyaları biz Azərbaycana gətirməliyik və elektron kənd təsərrüfatı sistemini nəhayət ki, tətbiq etməliyik".

Qeyd edək ki, son dövrlər ölkəyə yüksək keyfiyyətli müasir, iqtisadi cəhətdən səmərəli və itkisiz məhsul yığan texnika gətirilib. Təkcə keçən il 10 min ədəd yüksək səviyyəli texnika alınıb, cari ildə isə daha 5 min texnikanın alınması üçün dövlət büdcəsindən 160 milyon manat vəsait ayrılıb. Artıq bu texnikaların istismarı hesabına aqrar sektorda istər bitkiçilik, istərsə də heyvandarlıq sahələri üzrə məhsuldarlıq xeyli artıb.

*Ardı 4-cü səh.*



# 3 min ton üzüm istehsalı gözlənilir

**Fərqli iqlim qurşaqlarının cəmləşdiyi bərəkətli İsmayıllı torpağında yerə düşən hər toxum cücərir. Mədəni əkinlər bir yana, bu məkanın göz işlədikcə uzanan meşələrində bitən yabanı meyvə və giləmeyvələrin də sayı yoxdur. Bir qalır onlardan istifadə etmək. Hələ ki, bu, yada düşmür. Amma onun da zamanının gələcəyi gün yəqin ki, uzaqda deyil.**

Mədəni əkinlər baxımından isə rayondakı vəziyyət tam əksinədir. Bu gün rayonun əkinə yararlı torpaq sahələrinin hamısı əkin dövriyyəsinə cəlb olunub. Üstəlik əkilən sahələrə düzgün aqrotexniki qulluq göstərilir, hər qarış torpağın məhsuldarlığının artması üçün tədbirlər görülür. Bunun nəticəsi son illər taxılçılıqda özünü daha çox göstərir. Cari il taxılçılıqda məhsuldarlıq dəmyə şəraitində 38 sentner olub. Bundan başqa, kartofçuluq da İsmayıllıda geniş yayılıb. "İsmayıllı tərəvəzləri" adlı brend formalaşıb.

Üzümçülüyə gəldikdə, İsmayıllı Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Həsən Həsənovun sözlərinə görə, 2012-2020-ci illərdə Azərbaycanda üzümçülüyün inkişafına dair Dövlət Proqramı qəbul edildikdən sonra rayon ərazisində yeni üzüm bağlarının salınması istiqamətində xeyli işlər görülüb: "Mövcud üzüm bağlarının sahəsi genişləndirilərək 1071,3 hektara çatdırılıb. Bu bağların 296 hektarı Nikitin adına kolxoza, 271 hektarı "Monolit" Kəndli Fermer Təsərrüfatına, 115 hektarı "Aspiland" MMC-yə, 244 hektarı "Kənd" MMC-yə, qalan hissəsi fiziki şəxslərə məxsusdur".

*Ardı 4-cü səh.*

## Azərbaycan Respublikası hökuməti ilə Tacikistan Respublikası hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası hökuməti ilə Tacikistan Respublikası hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında 2018-ci il avqustun 10-da Bakı şəhərində imzalanmış saziş təsdiq edilsin.
2. Bu fərmanın 1-ci hissəsində göstərilən saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Nazirlər Kabineti onun müddəalarının həyata keçirilməsi üçün tədbirlər görsün.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 oktyabr 2018-ci il*

## Azərbaycan Respublikası hökuməti ilə Tacikistan Respublikası hökuməti arasında sənaye və yeni texnologiyalar sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası hökuməti ilə Tacikistan Respublikası hökuməti arasında sənaye və yeni texnologiyalar sahəsində əməkdaşlıq haqqında 2018-ci il avqustun 10-da Bakı şəhərində imzalanmış saziş təsdiq edilsin.
2. Bu fərmanın 1-ci hissəsində göstərilən saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 oktyabr 2018-ci il*

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Tacikistan Respublikasının İqtisadi İnkişaf və Ticarət Nazirliyi arasında əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Tacikistan Respublikasının İqtisadi İnkişaf və Ticarət Nazirliyi arasında əməkdaşlıq haqqında 2018-ci il avqustun 10-da Bakı şəhərində imzalanmış saziş təsdiq edilsin.
2. Bu fərmanın 1-ci hissəsində göstərilən saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 oktyabr 2018-ci il*

## Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə Tacikistan Respublikasının Milli Təhlükəsizlik Dövlət Komitəsi arasında Tacikistan Respublikasının Milli Təhlükəsizlik Dövlət Komitəsinin Sərhəd Qoşunlarının hərbi qulluqçularının Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin Akademiyasında təhsil almaları haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə Tacikistan Respublikasının Milli Təhlükəsizlik Dövlət Komitəsi arasında Tacikistan Respublikasının Milli Təhlükəsizlik Dövlət Komitəsinin Sərhəd Qoşunlarının hərbi qulluqçularının Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin Akademiyasında təhsil almaları haqqında 2018-ci il avqustun 10-da Bakı şəhərində imzalanmış saziş təsdiq edilsin.
2. Bu fərmanın 1-ci hissəsində göstərilən saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti onun müddəalarının həyata keçirilməsini təmin etsin.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 oktyabr 2018-ci il*

## V.İ.Abdullayevin Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Vaqif İdris oğlu Abdullayev Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 oktyabr 2018-ci il*

## Milli Məclisin iclasında





















# Dağlıq Qarabağ problemi Ali Baş Komandanın rəhbərliyi ilə həll olunacaq

Oktyabrın 5-də Milli Məclisin növbəti plenar iclası keçirildi. Spiker Oqtay Əsədov iclası açıq elan etdikdən sonra gündəlikdəki məsələlərin müzakirəsi başladı.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə Vergi Məcəlləsində və Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun layihələri barədə (birinci oxunuş) məlumat verdi. Bildirildi ki, məcəllələrə nəzərdə tutulan dəyişikliklər "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli qanununun icrası ilə əlaqədardır.

Müzakirələr zamanı söz alan deputat Aydın Mirzəzadə 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə təbriklərini çatdırdı. Sonra qanun layihələri səsə qoyularaq təsdiq olundu.

Gündəlikdəki Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında (birinci oxunuş) və "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə (birinci oxunuş) qanun layihələri də təsdiq olundu. Qanun layihələrində təklif olunan dəyişikliklərdə məqsəd Mülki Məcəllə ilə "Banklar haqqında" qanun arasında olan ziddiyyətlərin aradan qaldırılmasıdır.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında (birinci oxunuş) və "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə (birinci oxunuş) qanun layihələrini müzakirəyə təqdim etdi. Bildirildi ki, dəyişikliklər daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının qeydiyyatının və dövriyyəsinin elektron qaydada təşkili ilə bağlı müddəaların hüquqi əsasının formalaşdırılması, həmçinin ipoteka kağızının tərtib olunması, ipoteka qoyan tərəfindən imzalanması, onun notariat qaydasında təsdiqlənməsi və digər prosedurların elektron qaydada həyata keçirilməsini nəzərdə tutur.

Qanun layihələri qəbul edildi.

Müzakirələr zamanı Siyavuş Novruzov dedi ki, son vaxtlar bir qrup insan Dağlıq Qarabağ adı altında müxtəlif kütləvi aksiyalar keçirir. Qarabağdan sui-istifadəyə cəhd edən insanların bu məsələni ortaya atmaları, erməni dəyirmanına su tökməklə yanaşı, cəmiyyətdə çaşqınlıq yaradır. Dağlıq Qarabağ məsələsinin hər zaman diqqətdə saxlanıldığını deyən S.Novruzov vurğuladı ki, Azərbaycan Prezidenti bu istiqamətdə işlər görür: "Bütün beynəlxalq təşkilatların kürsüsündən nəinki işğal olunmuş ərazilərimiz, eyni zamanda vaxtilə Azərbaycana aid olan torpaqlarla bağlı həqiqətlər dünyaya çatdırılır. Azərbaycan Prezidenti danışıqlarla bağlı mütəmadi olaraq vətəndaşlara hesabat verir. İstər forumlarda, istərsə də regionlara səfərləri zamanı hər zaman Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunur. Bu, ictimaiyyətə bəllidir. İctimaiyyət də bu il keçirilən prezident seçkilərində ölkə rəhbərinə yenidən yekdilliklə səs verərək bu hüququn yalnız Prezidentə aid olduğunu təsdiqlədi. Azərbaycan xalqının verdiyi mandatla problemin həlli istiqamətində iş Prezident tərəfindən davam etdirilir".

Siyavuş Novruzov bildirdi ki, Azərbaycan ordunun gücləndirilməsində də bu məsələyə hazırlığını sübut edir: "Bu il ölkədə keçirilən iki hərbi parad buna nümunədir. Azərbaycan sülh tərəfdarı olduğunu həmişə bəyan edib, amma sülh olmadığı təqdirdə hərbi yola əl atacağını da hər zaman açıqlayıb. Lakin bundan sui-istifadə edənlər torpaqlarından didərgin düşən qaçqın və məcburi köçkünlərə çağırış edərək onları mənəvi terrorla üz-üzə qoyurlar".

S.Novruzov qeyd etdi ki, Dağlıq Qarabağ problemi Ali Baş Komandanın rəhbərliyi ilə həll olunacaq: "Dövlət problemin sülh yolu ilə həllinə çalışır, olmayacağı təqdirdə hərbi yola əl atacaq. Görəsən, indi etiraz edənlər bu müharibədə iştirak edəcəklərmi? O mitinqi edənlərin övladları gəlib orada döyüşəcəklərmi? Azərbaycanın ərazi bütövlüyü onlar üçün əsas şərt deyil, belələri üçün əsas şərt oyunbazlıq etməkdir. Azərbaycan xalqı da bunu görür və bunun nəticəsi olaraq da, həmin insanları baykot edir. Çünki məhz həmin insanların ucbatından bu gün qaçqın və məcburi köçkünlər öz torpaqlarını itiriblər, evlərindən didərgin düşüblər.

Deputat Bəxtiyar Əliyev dedi ki, Dağlıq Qarabağla bağlı mövqe vaxtilə ulu öndər Heydər Əliyev tərəfindən düzgün müəyyən edilib. Bildirdi ki, vaxtilə parlamentdə ümummilli lider bütün siyasi qüvvələrə müraciət edərək onların Dağlıq Qarabağla bağlı müzakirəyə çağırdı. Amma bəziləri o zaman gəlmədilər, öz mövqelərini bildirmədilər, bu gün isə ayrı-ayrı yerlərdən səsləri gəlir. Deputat qeyd etdi ki, Prezident İlham Əliyev vaxtilə Avropa Şurasında Azərbaycan nümayəndə heyətinə rəhbərlik edəndə bu siyasəti çox açıq, aydın, israrla davam etdirirdi. "Bu siyasət nəticəsində 2005-ci ildə Avropa Şurasında çox ciddi qətnamə qəbul edildi. Sənəddə qeyd olundu ki, Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon Ermənistan tərəfindən işğal edilib, bu gün Dağlıq Qarabağ bir qrup separatçının əlindədir, azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı həyata keçirilib. Budur, Azərbaycan dövlətinin həyata keçirdiyi siyasət. Amma gəlin görək, başqaları ortaya nə qoyublar. Heç olmasa, bir parça kağız gətirsinlər ki, bu məsələni hansısa bir qeyri-hökumət təşkilatı ilə beynəlxalq aləmdə müzakirə ediblər və hansısa sənədin qəbuluna nail olublar".

Bəxtiyar Əliyev bildirdi ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan uğurla inkişaf edir: "Ərazilərimizin işğaldan azad edilməsi istiqamətində aparılan işlər də sübut edir ki, Azərbaycan heç zaman öz torpaqlarını heç kimə güzəştə getməyəcək. Azərbaycan öz torpaqlarını sülh yolu ilə azad etmək istəyir, ancaq bu alınmazsa, əlbəttə ki, torpaqlarımız hərb yolu ilə azad ediləcək".

Deputat Fəzail Ağamalı isə dedi ki, hər birimiz Prezidentlə, dövlətimizlə birgə olub öz mövqeyimizi bildirməliyik və belə avantürist hərəkətlərə qarşı çıxmalıyıq.

Sonra iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsi haqqında (birinci oxunuş) məlumat verdi. Dəyişikliklər lotereyaların, o cümlədən elektron lotereyaların təşkili və keçirilməsinə nəzarət mexanizmlərinin, bu sahədə hüquqi bazanın daha da təkmilləşdirilməsini, lotereyalar təşkilatçısının təsisçisinə dair tələblərin, lotereyalarda iştirak edən şəxslərin yaş məhdudiyyətinə dair müddəaların qanuna daxil edilməsini, elektron lotereyaların dövlət qeydiyyatına alınmış elektron informasiya sistemi vasitəsilə həyata keçirilməsini nəzərdə tutur.

Qanun layihəsi təsdiqləndi.

İclasda daha sonra Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında (birinci oxunuş) və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihələri müzakirəyə çıxarıldı. Hər iki layihə barədə komitə sədri Əli Hüseynli danışdı. Dəyişikliklər yerin təkinin qorunması və istifadəsi qaydalarının pozulmasına görə cinayət və inzibati məsuliyyətin sərtləşdirilməsini nəzərdə tutur. Qısa müzakirədən sonra layihələr təsdiq olundu.

Deputatlar "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsinə də (birinci oxunuş) müsbət münasibət bildirdilər. Dəyişiklik dövlət və bələdiyyə torpaqlarının istifadəyə, icarəyə və mülkiyyətə verilməsi ilə əlaqədar rayon (şəhər) icra hakimiyyəti başçılarının sərəncamlarının məhkəmələrdə mübahisələndirilməsi məsələsinin tənzimlənməsi ilə bağlıdır.

Qanun layihəsi təsdiq olundu.

Komitə sədri Əli Hüseynli "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanununun layihəsi haqqında (birinci oxunuş) məlumat verdi. Qeyd etdi ki, layihə "Doing Business 2018" hesabatının "Biznesə başlama" indikatoru üzrə Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması, hüquqi şəxslərin qeydiyyatı zamanı qanuni təmsilçi barədə qeydiyyat orqanına yanlış məlumatların verilməsinin qarşısının alınması məqsədi ilə hazırlanıb.

Qanun layihəsi təsdiq olundu.

İclasda "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi (birinci oxunuş) də müzakirə edildi. Layihəyə əsasən 15 yaşı tamam olmamış vətəndaşlardan əl-barmaq izlərinin götürülməsi nəzərdə tutulmur.

Qanun layihəsi təsdiq olundu.

"Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsi (birinci oxunuş) isə diplomatik pasport daşıyan vətəndaşların əhatə dairəsini genişləndirir. Belə ki, dəyişikliklərə əsasən Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri nəzdində təsis edilən hərbi attaşelik aparatlarının zabit heyətinə, həmçinin beynəlxalq təşkilatlardakı hərbi nümayəndələrinə və onların müavinlərinə, müvafiq icra hakimiyyəti orqanının xarici dövlətlərdə və beynəlxalq təşkilatlardakı nümayəndələrinə diplomatik pasport veriləcək.

Müzakirələr zamanı deputat Qüdrət Həsənquliyev Mərkəzi Seçki Komissiyasının üzvlərinə də diplomatik pasportların verilməsini təklif etdi. Deputat Elmira Axundova isə səlahiyyət müddəti başa çatan deputatlara da diplomatik pasport verilməsi təklifi ilə çıxış etdi. Lakin bu təklif kimi qaldı.

Layihə səsə qoyularaq təsdiqləndi.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Qanununun layihəsinin (birinci oxunuş) müzakirəsi zamanı bildirildi ki, dəyişikliklər texnikidir və uyğunlaşdırma məqsədi daşıyır. Belə ki, Məcəllənin 213-cü maddəsinin adında dəyişiklik edilərək "Vergi ödəməkdən yayınma" sözləri "Vergiləri, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma" sözləri ilə əvəz olunur.

Layihə təsdiq olundu.

İclasda son olaraq "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" (birinci oxunuş), "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" (birinci oxunuş) və "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" (birinci oxunuş) qanun layihələri müzakirə edildi. Layihələrlə bağlı komitə sədrləri Əli Hüseynli və Arif Rəhimzadə məlumat verdilər.

Müzakirələr zamanı deputatlardan Siyavuş Novruzov, Fazil Mustafa, Qənirə Paşayeva və İlham Əliyev bələdiyyələrin maliyyəsi ilə bağlı təkliflərini bildirdilər.

Qanun layihələri təsdiq olundu.

Qeyd edək ki, iclasda deputatlardan Zahid Oruc, Tahir Kərimli, Şahin İsmayılov, Kamran Nəbizadə, Məlahət İbrahimqızı və Xanhüseyn Kazımlı cari məsələlərlə bağlı fikirlərini bildirdilər.

Deputat Çingiz Qənizadə Rusiya Federasiyası Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsi sədrinin müavini Konstantin Zatulinin açıqlamasına münasibət bildirdi. Qeyd etdi ki, K.Zatulinin fikirlərini Rusiyanın mövqeyi kimi qəbul edə bilmərik. Ç.Qənizadə Duma komitəsinin rəhbərliyində olan şəxsin belə bir mövqe nümayiş etdirməsinin qəbuledilməz olduğunu deyib: "Təbii ki, biz onun fikirlərini Rusiyanın mövqeyi kimi qəbul edə bilmərik. Zatulin iddia edir ki, əgər Dağlıq Qarabağda müharibə başlasa, bu, Azərbaycanın dağılması ilə nəticələnə bilər. Daha sonra iddia edir ki, Azərbaycanın siyasəti sənədlərdə əks olunduğu kimi deyil".

Çingiz Qənizadənin sözlərinə görə, K.Zatulin kiminsə şəxsi fikirlərini əsas götürüb bunu Azərbaycan dövlətinin siyasəti kimi təqdim etməyə çalışıb: "Təbii ki, biz bunu qətiyyətlə pisləyirik".

Ç. Qənizadə K.Zatulinin ermənilərə bağlı olmasına da diqqət çəkib: "Zatulin Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimdə keçirilən "parlament seçkiləri"ndə iştirak edib və həmin şəxs Azərbaycan Xarici İşlər Nazirliyinin "arzuolunmaz şəxslər" siyahısına daxil edilib".

***Rəşad CƏFƏRLİ,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

## Azərbaycan-Moldova GUAM çərçivəsində dinamik əməkdaşlıq edir

Azərbaycanın Baş nazirinin müavini Əli Əhmədov oktyabrın 5-də Kişineuda Moldovanın Baş naziri Pavel Flip ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Moldova arasında iqtisadi, siyasi, elmi, mədəni əlaqələrin daha da inkişaf etdirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Əli Əhmədov bildirib ki, ölkələrimiz GUAM çərçivəsində dinamik əməkdaşlıq edir, beynəlxalq təşkilatlarda eyni mövqe tuturlar. Baş nazirin müavini Azərbaycan iqtisadiyyatının son nailiyyətlərindən, dövlətimizin təşəbbüsü ilə həyata keçirilən qlobal energetika və nəqliyyat layihələrindən danışıb. Eyni zamanda, vurğulayıb ki, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi, bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün ağır vəziyyəti ölkəmiz üçün başlıca problem olaraq qalır.

# Moldovada GUAM-a üzv ölkələrin hökumət başçılarının toplantısı keçirilib

Bu gün Moldovanın paytaxtı Kişineu şəhərində GUAM-a üzv ölkələrin hökumət başçılarının toplantısı keçirilib. AZƏRTAC xəbər verir ki, quruma üzv olan ölkələrin hökumət başçılarının iştirak etdiyi toplantıda ölkəmizi Baş nazirin müavini Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.






İclasda GUAM-a üzv ölkələr arasında iqtisadi, siyasi, elmi, mədəni əlaqələrin inkişafı, beynəlxalq təşkilatlarda birgə fəaliyyətin perspektivləri, dondurulmuş münaqişələrin həlli istiqamətində yeni fəaliyyət proqramının hazırlanması məsələləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Azərbaycanın GUAM-a üzv dövlətlərlə hərtərəfli əlaqələrin inkişafına xüsusi diqqət yetirdiyini bildirən Baş nazirin müavini Əli Əhmədov son illər ölkəmizin iştirakı ilə bölgədə həyata keçirilən beynəlxalq infrastruktur layihələrinin səmərəli nəticələrindən bəhs edib. Ötən il Qərblə Şərqi birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verildiyini diqqətə çatdıran Əli Əhmədov bu layihənin GUAM-a üzv olan ölkələr arasında iqtisadi, ticari əlaqələrin inkişaf etdirilməsinə əsaslı zəmin yaratdığını bildirib.

Baş nazirin müavini qeyd edib ki, Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçılıq siyasəti və Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı tutduğu destruktiv mövqe, bölgədə sülh və əmin-amanlığa təhdid olmaqla yanaşı, GUAM-a üzv ölkələrin inkişafına ciddi xələl gətirir.

Görüşün iştirakçıları GUAM-a üzv ölkələrin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinin toxunulmazlığı məsələsində həmrəy olduqlarını bildiriblər.

Toplantıda çıxış edən Moldovanın Baş naziri Pavel Flip, Ukraynanın Baş naziri Vladimir Qroysman və Gürcüstanın Baş naziri Mamuka Baxtadze təşkilatın fəaliyyət göstərdiyi illərdə beynəlxalq arenada qazandığı nailiyyətlərdən, qurumun qarşısında duran vəzifələrdən bəhs ediblər. GUAM ölkələri arasında azad iqtisadi zonanın yaradılması, sabit inkişafın təmin edilməsi, nəqliyyat, energetika, turizm, elm və mədəniyyət sahələrində mövcud olan əlaqələrin intensivləşdirilməsi və inteqrasiya proseslərinin gücləndirilməsi məsələlərinin müzakirəsinin vacibliyini vurğulayıblar.

Sonra GUAM-a üzv olan ölkələrin hökumət başçılarının və quruma üzv olan ölkələrin gömrük idarələri arasında dövlət sərhədlərindən malların hava nəqliyyatı ilə daşınması ilə bağlı gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində birgə əməkdaşlıq haqqında protokol imzalanıb. GUAM ölkələrinin hökumət başçıları qurumun gələcək strategiyası ilə bağlı mətbuat konfransı keçiriblər.

Azad Mirzəcanzadə - 90

# Elmin zirvəsi

O, zəhməti, iradəsi və prinsiplərinin gücü ilə öz adını məşğul olduğu fəaliyyət sahəsinin simvoluna çevirmişdi. Dünyaya sanki elmlə məşğul olmaqdan ötrü gəlmişdi. Həyatı riyaziyyatın dilində izah edir, bir çoxlarına son dərəcə qəliz görünən mürəkkəb elmi fikirləri ən sadə, hamının anlaşacağı tərzdə söyləyə bilirdi. Akademik Azad Mirzəcanzadə elmlə insanlar arasında bir tərcüman idi.



Yaşının çox erkən çağlarından təhsildə, elmdə heyrətamiz nəticələr qazanan və qeyri-adi istedad sahibi kimi qəbul olunan alimin zəka hüdudları çox geniş, yaddaşı iti, elmi məntiqi güclü idi. İxtisas etibarilə daha çox texniki sahənin adamı sayılsa da, musiqini musiqişünaslar, ədəbiyyatı ədəbiyyatşünaslar, tarixi tarixçilər, fəlsəfəni filosoflar qədər anlayıb duyurdu.

Azad Mirzəcanzadə şəxsiyyətini yetirən onun əməlləridir. Gördüyü böyük işlərdir, apardığı nəhəng tədqiqatlar, kəşflər, ixtiralar, araşdırmalardır. O, cəmi bir neçə on il yaşayıb min illərə sığan əməllərə imza atmış görkəmli alim, ziyalı, şəxsiyyət idi. Dünyada ən böyük xoşbəxtlik də elə şəxsiyyət olmağı bacarmaqdır.

Xatirələrinin birində yazırdı ki, şəxsiyyətlə, özü də ehtirama layiq şəxsiyyətlə hər an rastlaşmaq olmur: "Yadımdadır, keçmiş Ketsxoveli küçəsində yaşayarkən dahi Üzeyir bəy də orada qalırdı. Biz uşaqdıq, Üzeyir bəy isə cavan. Amma küçədə hamı ona ehtiramla, hörmətlə yanaşırdı.

Digər qonşumuz Şeyxülislam Əlizadə idi. Uzaqdan onu görəndə hamı bir nəfər kimi özünü yığışdırırdı. Ona "ağa" deyə müraciət edirdik. Bizlərdən birimiz ona yanaşıb çantasını götürməyə razılıq ala bilirdiksə, bu, böyük xoşbəxtlik idi. Tez evə qaçıb valideynlərimizə xəbər verirdik ki, bu gün ağa çantasını götürməyə mənə izin verdi".

Bəlkə elə uşaqlıqdan yaddaşına köçmüş bu cür şəxsiyyət nümunələri idi böyüyüb yaşa dolduqca Azad Mirzəcanzadəni də zamanla onlara bənzədən?!

Onu dünyada tanıdan əsas nailiyyət neft-qaz mexanikası sahəsində yaratdığı bütöv bir elmi istiqamət idi. Bu nəticəni qazanmaqdan ötrü Azad Mirzəcanzadə çox çətin, mürəkkəb, şərəfli bir alim ömrü yaşamışdı.

## Fitrətən alim

Tətbiqi mexanika və neft-mədən işləri üzrə yeni istiqamətlərin banisi Azad Mirzəcanzadə neft-qaz sənayesinin aktual problemlərinin həllinə dair çox sayda qiymətli tədqiqatları ilə Azərbaycan elminə misilsiz nailiyyətlər qazandırmış və böyük şöhrət gətirmişdir. Zəngin elmi irsə malik alimin rəhbərliyi və iştirakı ilə dəniz, neft, qaz-kondensat yataqlarının işlənilməsinin fundamental-nəzəri əhəmiyyətli metodları hazırlanıb tətbiq edilmişdir. Azərbaycan elminin dünya elm məkanına inteqrasiyasının sürətləndirilməsində A.Mirzəcanzadənin təqdirəlayiq xidmətləri olmuşdur.

Görkəmli alim Azərbaycan MEA-nın, Rusiya Təbiət Elmləri Akademiyasının, Başqırdıstan EA-nın, Ukrayna Neft-Qaz Akademiyasının həqiqi üzvü, iki dəfə Azərbaycan Dövlət mükafatı, üç dəfə İ.M.Qubkin adına mükafatların laureatı idi. Əməkdar elm və texnika xadimi adına layiq görülmüşdü. O, Azərbaycanın XX əsrdə yetirdiyi çox az sayda nadir zəka sahiblərindən idi. Hamı etiraf edirdi: A.Mirzəcanzadə fitrətən alim idi. İnformasiyaları sürətlə qəbul edərək onları tez bir zamanda mənimsəyib elmi yeniliklərlə ideyalar çoxluğuna çevirmə bacarığı ona İlahi bir keyfiyyət kimi bəxş olunmuşdu. Dünyaya, həyata, əksər elmi problemlərə yüksəklərdən, daha geniş baxış bucağından nəzər salırdı, bir çox alimlərin görə bilmədiklərini dərhal duyurdu. Öz yaşam tərzi, tapındığı dəyərlər var idi. Bunlara uyğun Mirzəcanzadə qanununu formalaşdırmışdı. Bu qanuna görə, insan həyatda qarşıya qoyduğu məqsədə riyazi yox, məhz cəbri yolla getməlidir. Bu yol birbaşa, düz xətt boyunca deyil, xeyli mürəkkəb əməliyyatlardan, ağır əzab-əziyyətlərdən keçməli idi. Və bütün əzab-əziyyətlərə rəğmən çətin yolun nəticəsi də xoş, faydalı, bütöv olurdu.

Mirzəcanzadə qanunu ilə yaşamaq hər cür rahatlıq və firavanlıqdan, yüksək vəzifə və rütbədən, imtiyaz və mükafatdan, bir sözlə, payına düşən halal haqqından könüllü imtina etməyi bacarmaq deməkdir. Bu qanunla yaşamaq elmin fədaisi olmaq, xalqına, vətəninə, millətinə təmənnasız xidmət göstərmək, ömrün hər anını təhsil, elm və mədəniyyətin yüksəlişi yolunda zərrə-zərrə əritmək deməkdir. Çox ağır və iztirablı olsa da, bunlar həyatda insana üzağlığı, başucalığı gətirdiyi, şərəf və ləyaqət bəxş etdiyi üçün dəyərli idi. Bütün bunlar isə mənəviyyat zirvəsinə ucalmaq demək idi. O hesab edirdi ki, əsl şəxsiyyət ümumbəşəri mənəviyyatla yaşamalıdır. Xeyirxahlıq, comərdlik, alicənablıq şəxsiyyətin ən böyük zinətidir.

## "Müharibə uşağı"

O, "müharibə uşaq"larından sayılırdı. Yeniyetməlik və gənclik dövrü Böyük Vətən müharibəsi illərinə təsadüf etmişdi. Orta məktəbi 15 yaşında bitirmişdi. Əvvəlcə axşam fəhlə-gənclər məktəbində riyaziyyatdan dərs deməklə ailəsinə kömək etmişdi. 1944-1951-ci illərdə də müəllim kimi fəaliyyət göstərmişdir.

Orta məktəbi bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutuna daxil olmaq istəyir. Amma yaşı az olduğundan sənədlərini qəbul etmirlər. İnstitutun rektoruna müraciət edir. Rektor neft-mədən ixtisası üzrə oxumaq istəyənlərin sayının azlığını nəzərə alaraq onun həmin fakültəyə qəbuluna razılıq verir. O zaman ətrafındakı adamlar, qohum-əqrəbası, tələbə yoldaşları böyük istedad sahibi olan Azadı seçdiyi ixtisasa görə xeyli qınayırlar. Mirzəcanzadə isə Yerin təkindəki hansı sirlərin, necə zəngin sərvətin elmi imkanlarının gizləndiyini yaxşı bilirdi. Ona görə də kənar təsirlər onun seçimini dəyişə bilmir...

Tələbə ikən elmi yaradıcılıqla məşğul olur. Əvvəlcə Elmi Tədqiqat Neft İnstitutunda laborant, sonralar isə kiçik elmi işçi vəzifəsinə qəbul edilir. 1948-ci ildə "Gil məhlulların lay suyunda hazırlanmasının məqsədəuyğunluğu" mövzusunda ilk elmi məqaləsini yazır və çap etdirir. Böyük praktiki əhəmiyyətə malik elmi işinə görə o, SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin fəxri fərmanı ilə təltif olunur. İnstitutun son kursunda isə namizədlik dissertsiyasının müdafiəsinə hazırlaşır. 1951-ci ildə 23 yaşında "Gilli məhlulların hidravlik elementləri" mövzusunda dissertasiyasını uğurla müdafiə edir. Və dərhal doktorluq dissertasiyası üzərində işləməyə başlayır.

## Böyük elmə erkən addımlar

Azad Mirzəcanzadə 1957-ci ildə, 29 yaşında SSRİ Elmlər Akademiyasının Mexanika İnstitutunda "Özlü və özlüplastik mayelərin hidrodinamikasının problemləri" mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edir. Bu, həmin dövr üçün çox böyük uğur və yenilik idi. Azad Mirzəcanzadə 1963-cü ildə Azərbaycan EA-nın müxbir üzvü, 1967-ci ildə isə həqiqi üzvü seçilir. 1952-1960-cı illərdə Azərbaycan Dövlət Universitetinin Nəzəri mexanika və Geofizika kafedralarında rəqslər nəzəriyyəsi, əməliyyatlar hesabı, materiallar müqaviməti və nəzəri mexanika kurslarından mühazirələr oxuyur. 1954-1958-ci illərdə Azərbaycan EA-nın neft ekspediyasında şöbə müdiri vəzifəsində çalışır. 1959-1962-ci illərdə Neft-Kimya İnstitutunun Nəzəri mexanika kafedrasının müdiri kimi fəaliyyət göstərir, eyni zamanda, Azərbaycan Elmi-Tədqiqat Neftçıxarma İnstitutunda hidromexanika laboratoriyasına rəhbərlik edir. 1962-ci ildən ömrünün sonuna kimi Azərbaycan Dövlət Neft Akademiyasında Neft və qaz yataqlarının işlənməsi və istismarı kafedrasının müdiri olur, 1988-ci ildən EA-nın Riyaziyyat və Mexanika İnstitutunda Neft və qazın qeyri-xətti mexanikası şöbəsinə və Ufa Neft İnstitutunda Qaz və qaz-kondensat yataqlarının işlənməsi kafedrasına rəhbərlik edir.

## Onun yaratdığı ilklər

Bir dəfə "Veçernaya Ufa" qəzetinin müxbiri ondan ixtisasca əslində kim olduğunu soruşur. O zaman Mirzəcanzadənin cavabı belə olur: "Bu sualı mənə 1968-ci ildə "İzvestiya" qəzetinin müxbiri də vermişdi. Və onun sualını belə cavablandırmışdım ki, ixtisaslaşma məsələsini əslində, qəbul etmirəm. Mənim bütün həyatım hesabdan başlanıb. Əvvəlcə saymağı öyrəndim, bir ildən sonra üçüncü sinfi bitirdim, altıncı sinifdə isə artıq ali riyaziyyatı bilirdim. Karyeramı riyaziyyat sahəsində quracağımı gözləyirdilər. Amma orta məktəbi bitirəndə neft mühəndisi peşəsi Azərbaycanda bir şərəf işi idi. Mən də bu peşənin ardınca getdim. Amma fizikaya, riyaziyyata və digər elmlərə də heç vaxt biganə qalmadım".

Əlbəttə, Azad Mirzəcanzadə hər şeydən əvvəl, neftçi-alim, dünya neft elmini ləyaqətlə təmsil edən Azərbaycan vətəndaşı, ziyalısı idi. O, tətbiqi mexanika, neft-mədən işləri, neft-qazçıxarma istehsalının texnologiyası, neft-qaz yataqlarının işlənməsi sahəsindəki tədqiqatları ilə bəşər elminə mühüm töhfələr vermişdi. Vaxtilə neft ehtiyatları və istehsalına görə beynəlxalq aləmdə mühüm yerlərdən birini tutmuş keçmiş Sovetlər İttifaqında neft elminin formalaşması və inkişafından söhbət düşərkən ilk növbədə, Azərbaycan alimlərinin, xüsusilə də Azad Mirzəcanzadənin adı çəkilirdi.

Görkəmli alim ilk dəfə müxtəlif tərkibli neft axınlarının klassik Nyuton qanunlarına tabe olmadığını göstərmiş və bu tip neft yataqlarının nəzəri əsaslarını işləyib hazırlamışdır. O, qaz-kondensat sistemlərinin süzülməsi üçün diferensial tənlik çıxarmış, belə sistemlərdə verim əmsalının işlənmə müddətindən asılı olaraq artmasını yazmışdır. Bununla da neftin istehsalı zamanı əlavə quyuların qazılmasına ehtiyac olmadığı sübuta yetirilmiş və bu da səmərəliliyin artmasına səbəb olmuşdur. Akademik ilk dəfə qaz və qaz-kondensat yataqlarının işlənməsində başlanğıc hərəkəti üçün lazım olan təzyiqlər fərqinin çox zəruri parametr olduğunu göstərmişdir. Bundan başqa, alim ilk dəfə olaraq çətin şəraitdə quyuların qazılmasının hidrodinamiki əsaslarını işləyib hazırlamışdır.

Azad Mirzəcanzadə geofiziki mürəkkəb sistemlər, texnoloji proseslərin riyazi modernləşdirilməsi, onlara nəzarət və idarəolunma məsələlərini tədqiq edən elmi məktəbin yaradıcısıdır. Neftçıxarma proseslərinin optimallaşdırılması sahəsində bir çox mürəkkəb məsələlərin həlli onun adı ilə bağlıdır. Akademik 25 ildən çox müddətdə Moskvada Ümumrusiya Neft-Qaz Elmi Tədqiqat İnstitutunda beş laboratoriyanı birləşdirən elmi istiqamətə rəhbərlik etmişdir.

A.Mirzəcanzadə musiqi melodiyalarının strukturunda riyazi məntiq elementlərinin olmasını göstərən maraqlı məqalələr yazmışdır. O, qanın kapilyarlarda və damarlarda hərəkətinin, neftin boru kəmərləri ilə axını və məsamələrdə süzülməsi ilə eyni olduğunu göstərərək tibb sahəsində də bir çox məsələlərin həllini irəli sürmüşdür. Alimin fəaliyyət çevrəsi, elmi nüfuzu Azərbaycan sərhədlərindən dünyaya doğru çox genişlənmişdi. Akademik Qərbi Sibirdə, Tümen vilayətində, Tatarıstanda, Almaniyada, Əlcəzairdə, Başqırdıstanda, Vyetnamda və Çin Xalq Respublikasında geniş elmi-pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1962, 1965, 1966 və 1972-ci illərdə Polşada, Almaniyada, 1967-ci ildə Azərbaycan nümayəndə heyətinin tərkibində Kanadada Ekspo-67 sərgisində, 1969-cu ildə Yaponiyanın Kioto şəhərində "Beynəlxalq Hidravlik Tədqiqatlar Assosiasiyasının XIII Konqresi"ndə, 1969-1972 və 1986-cı illərdə Almaniya Demokratik Respublikasında keçirilən konfranslarda, 1991-ci ildə Yaponiya, Kanada, Rumıniya, Norveç və İngiltərədə olan beynəlxalq elmi konqreslərdə iştirak etmişdi. Mühazirələr oxumuş, dəyərli məsləhətlərini vermişdi.

Azad müəllim vaxtaşırı Neft daşlarında, Qum adasında, Abşeronneft, Nərimanovneft və digər neftqazçıxarma idarələrində seminarlar aparmış, elmlə istehsalat arasında sıx əlaqə qurmağa çalışmışdır. O deyirdi: "Neft daşları dənizdə ilk neft mərkəzidir, orada neftin olmasını kəşf edənlər və onu tikənlər bəlkə də zənn etmirdilər ki, o, Azərbaycanın gələcəyi olacaq. Xəzərdə neft çoxdur, hələ də olacaq..."

Yetirmələri xatırlayırlar ki, bu görkəmli alim aspirantları üçün ildə iki dəfə - yayda Qara dəniz sahilindəki şəhərlərdə birində qışda isə Ufa və ya Moskvada yay və qış məktəbləri təşkil edirdi. Bu məktəblər haqqında əfsanələr dolaşırdı. Aspirantları ilə birlikdə elmlər doktorları və professorlar belə 2 həftəlik kampus həyatına can atırdılar. Freyddən Froma, Stravinskidən Q.Qarayevə, Bodlerdən H.Cavidə, etnogenezdən xaos nəzəriyyəsinə qədər ən maraqlı söhbətlər, müzakirələr olurdu bu məktəblərdə.

Azad Mirzəcanzadə bir müdriklik məktəbi idi. Ondan soruşanda ki, tələbələrinizin təhsilinə daha çox üstünlük verirsiniz, yoxsa intizamına? Cavab belə olurdu: "Nə oxumaq, nə də intizam əsas deyildir, bunlar ancaq nəticədir. Əsas insanın mənliyinin və istedadının olmasıdır. Bu iki amil varsa, təhsil də, intizam da öz-özünə əmələ gəlir".

Olduqca mürəkkəb xarakterli, kəskin, çılğın bir insan idi Azad Mirzəcanzadə. Ən kiçik hadisə ona pis təsir göstərir, uzun müddət yaddaşından silinmirdi. Tələbələrinə, aspirantlarına qüsursuz işləməyi inadla təkid edirdi. Böyük alimin pedaqoji fəaliyyətində orijinal və özünəməxsus mühazirə oxumaq üslubu var idi. O, tələbələrə, şagirdlərə müasir elmin ən yeni nailiyyətlərindən danışarkən musiqidən, ədəbiyyatdan, incəsənətdən və fəlsəfədən ixtisasa uyğun misallar gətirərdi, söhbətlərin dialoq şəklində aparılmasına üstünlük verərdi.

Texniki məsələləri o qədər sadə dillə, humanitar elmlər işığında izah edərdi ki, qarşısındakı ən zəif tələbə belə, onun mühazirələrindən nəsə götürərdi. Akademikin auditoriya diapazonu çox geniş idi. Burada məktəblilərdən tutmuş, yüksək rütbəli elmi mütəxəssislərə qədər öyrənməyə, dünyagörüşünü artırmağa cəhd göstərən hər kəsə rast gəlmək olardı.

## "Arzum özümdən sonra məndən çox bilən professionallar yetişdirməkdir"

Akademik A.Mirzəcanzadə ilk dəfə olaraq Azərbaycanın neft sənayesinin keçid dövründəki istiqamətləri haqqında konseptual mühazirələr söyləmiş, bu sahənin perspektivlərini riyazi modellər əsasında müəyyən etmiş, fundamental ideyalar irəli sürmüşdü. Alim böyük türk dünyasının artan qüdrətini, gerçəkləşən birliyini irəlicədən görərək türkdilli dövlətlərin neft-qaz ehtiyatlarını, onların müvafiq sahədəki potensial imkanlarını araşdırmışdı.

Bütün bunlarla yanaşı, Azad müəllim həm də o unikal şəxsiyyətlərdən idi ki, Azərbaycanın malik olduğu "qara qızıl"ın insan kapitalına çevrilməsinin zəruriliyini hələ on illər əvvəl irəli sürürdü. Alim inandırıcı faktlarla sübuta yetirirdi ki, qloballaşan dünyada elm, sözün əsl mənasında, strateji resursa çevrilir və elmi potensialı güclü olan dövlətin güclü iqtisadiyyat yaratmaq imkanı qat-qat çox olur. Onun ən böyük arzusu Azərbaycanın dünya bazarlarına təkcə nefti, qazı və digər sərvətləri ilə deyil, həm də öz elmi intellekti ilə çıxması idi.

Akademikə yaxşı məlum idi ki, bilik sərvəti hər bir fərdin yaşının ən erkən çağlarından formalaşmağa başlayır. Ona görə də orta təhsil cəmiyyətdə intellektual nəslin inkişafında çox böyük rol oynayır. Ümumorta təhsilin insan həyatındakı vacib əhəmiyyətini nəzərə alaraq bu böyük alim ciddi elmi tədqiqatları ilə yanaşı, həyatı boyu təhsilin həmin pilləsini diqqət mərkəzində saxlamışdır. 1989-cu ildə Bakı şəhərinin mərkəzində Hacıbəy Mahmudbəyov adına Liseyin yaradılması və sonrakı inkişafı Mirzəcanzadənin adı ilə bağlıdır. 1998-ci ildə Bakının Xətai rayonunda onun təşəbbüsü ilə fəaliyyətə başlayan 147 nömrəli texniki-humanitar təmayüllü lisey indinin özündə də böyük alimin işıqlı ideyalarını uğurla davam etdirir.

## Güzəştsiz elm adamı

A.Mirzəcanzadə elmdə, təhsildə güzəşti sevməyən, kiçik detallara belə, diqqət yetirən, peşəkarlıq uğrunda peşəkar qıtlığına qarşı fədakarcasına mübarizə aparan əzmkar insanlardan idi. Onu öz mövqeyindən döndərmək mümkün deyildi. Başqalarına da təlqin edirdi ki, məqsədə müvəffəq olmaq məhz sərtliyin, polad intizamın, prinsipiallığın, dərin zəkanın vəhdətində mümkündür.

O, ömrünün son aylarını xəstəxanada keçirdi. Bu müddətdə də bir neçə kitab yazdı. Bəşəriyyət üçün yaratdığı elmi irsin miqyasını yeni zərrələrlə genişləndirməyə çalışdı. Xəstəliklə çarpışdığı son günlərdə də prinsiplərindən geri dönmədi.

Akademik Azad Mirzəcanzadə nəinki Azərbaycanda, ümumən dünyada yeganə alimlərdən idi ki, 60 illik elmi fəaliyyəti ərzində 100-ə yaxın elmlər doktoru, 300-dən çox elmlər namizədi yetirmişdi.

Alimin elmi irsində dünyanın nüfuzlu jurnallarında çap olunmuş 500-ə yaxın elmi məqaləsi, 100-ə yaxın monoqrafiya, dərslik, dərs vəsaiti, 50 ixtirası və elmi-kütləvi əsərləri də xüsusi yer tutur.

## Mirzəcanzadə ömürlüyündə yeni dönəm

Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində Azad Mirzəcanzadənin ömürlüyündə yeni bir dönəm başlandı. O, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri vəzifəsinə təyin edildi. Sovet dövründə belə bir attestasiya prosesi mərkəzləşmiş şəkildə həyata keçirilirdi. Müstəqillik əldə etdikdən sonra isə ölkəmizdə də Ali Attestasiya Komissiyası yaradıldı və A.Mirzəcanzadə onun ilk rəhbəri oldu. On il bu komissiyaya sədrlik etdi. Bu illərdə Dövlət Elm və Texnika Komitəsi fəaliyyətə başladı və bu qurumun formalaşmasında, inkişafında onun ilk sədri A.Mirzəcanzadənin böyük əməyi xüsusi vurğulanmalıdır. Komitə Azərbaycan elminin dünya elminə inteqrasiyasını sürətləndirdi, ölkədə Patent Agentliyi formalaşdırıldı.

Bu dövr həm də Azad müəllimin bədxahların hücumuna ən çox məruz qaldığı dövrlərdən idi. Çünki o, elmi meyarların gücü ilə deyil, müxtəlif xoşagəlməz üsullarla alim adı qazanmaq istəyənlərə qarşı çox sərtlik nümayiş etdirirdi. Elmdə savadsızlar ordusunun formalaşmasına imkan vermirdi. Alim adını haqq etmədiklərini bu insanlara özünəməxsus müdrikliklə anladırdı. Başa düşənlər bundan nəticə çıxarırdı. Anlamayanlar isə A.Mirzəcanzadəyə qarşı aparılan kampaniyalara qoşulub məqsədlərinə bu yolla çatmağa çalışırdılar.

## Alim əməyinə yüksək qiymət

Ulu öndər Heydər Əliyev 2003-cü ildə A.Mirzəcanzadənin 75 illik yubileyi münasibətilə göndərdiyi təbrikdə yazırdı: "Dünyanın bir çox dillərində çap olunmuş əsərləriniz və nüfuzlu beynəlxalq konfranslardakı çıxışlarınızla, siz, Azərbaycan elmini ləyaqətlə təmsil etmisiniz. Respublikamız və çoxsaylı xarici ölkələr üçün hazırladığınız kadrlar haqlı olaraq fəxr edirlər ki, sizin tələbələrinizdirlər". Bu sözlər dövlət səviyyəsində böyük alimə verilən dəyərdir. Akademikin elm qarşısında əvəzolunmaz xidmətləri həm sovet dönəmində, həm də Azərbaycanın müstəqilliyi illərində yüksək qiymətləndirilmişdir. O, 1959-cu ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə "Şərəf nişanı" ordeni, 1966-cı ildə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur. 1970-ci ildə Azərbaycan SSR əməkdar elm və texnika xadimi fəxri adına, 1975-ci və 1986-cı illərdə Azərbaycan Respublikasının Dövlət mükafatına, 1986-cı ildə SSRİ Nazirlər Sovetinin mukafatlarına layiq görülmüşdür. A.Mirzəcanzadə 1982-ci ildə ikinci Qırmızı Əmək Bayrağı ordeni ilə də təltif olunmuşdur. 1998-ci ildə isə müstəqil Azərbaycan dövlətinin ən ali mükafatlarından olan "İstiqlal" ordeninə layiq görülmüşdür.

Bu il alimin anadan olmasının 90 ili tamam olur. Ölkəmizdə elmin inkişafı, təşkili və elmi kadr potensialının formalaşdırılması işinə dəyərli töhfələr vermiş akademikin yubileyinin layiqincə qeyd olunmasını təmin etmək məqsədilə Prezident İlham Əliyev xüsusi sərəncam imzalamışdır. Bu da dünya şöhrətli alim Azad Mirzəcanzadənin zəngin irsinə yüksək ehtiramın göstəricisidir.

* * *

Özü neft sənayesi üzrə böyük mütəxəssis olsa da, iş otağında və evindəki masasının üstündə yalnız bir insanın şəkli vardı - Üzeyir bəy Hacıbəylinin... A.Mirzəcanzadə 78 illik şərəfli bir ömür yaşadı və özü də belə şəxsiyyətlərin qərar tutduğu həm əbədiyyət, həm də elmin zirvəsinə ucaldı.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# 3 min ton üzüm istehsalı gözlənilir







*Əvvəli 1-ci səh.*

Son illər üzüm bağları salınarkən süfrə sortlarına xüsusi üstünlük verildiyini deyən müsahibimiz bildirdi ki, daha tez yetişən "Prima" sortunun iyul ayının 20-dən etibarən yığımına başlanılıb. "Aspiland" və "Kənd" MMC-lərdə "Kardinal", "Sultanino", "İtaliya" süfrə sortlarının yığımı davam edir. Bağlardan indiyədək təxminən 1500 tondan çox məhsul toplanıb. Hədəf isə 3 min tondur. Xatırladaq ki, ötən il rayon üzrə ümumilikdə 2 min 519,7 ton məhsul toplanmışdı.

Nikitin adına kolxozda təsərrüfat işlərinin qızğın çağıdır. İvanovkada indi boş dayanan adam görməzsən.

Kolxozun sədri Vasiliy Novoseltsev deyir ki, keçən illə müqayisədə bu il təsərrüfat üçün daha düşərlidir: "Bağlarda bol üzüm var. Əsasən texniki sort olan "Mədrəsə" əkmişik. Üzüm tədarükünə təzə başlandığı üçün məhsuldarlıq haqqında dəqiq fikir söyləmək çətindir. Lakin ümumilikdə bu il əvvəlki illə müqayisədə məhsuldarlığın daha yüksək olacağı gözlənilir. Orta hesabla hektardan 70 sentner məhsul yığmağı nəzərdə tutmuşuq. Ümumilikdə 1000 ton üzüm istehsal etməyi poqnozlaşdırmışıq".

Üzümün yığımında 110 nəfər iştirak edir. Onların arasında qonşu kəndlərin sakinləri də var. Əlavə olaraq kənd sakinlərinin iştirakı ilə iməciliklər də təşkil olunur. Hətta müəllimlər dərsdən sonrakı vaxtlarda və istirahət günlərində könüllü şəkildə üzüm yığımında iştirak edirlər.

Ən vacib faktorlardan biri də istehsal edilən üzümün alış bazarının olmasıdır. Kolxozla "Abşeron şərab" şirkəti arasında müqavilə imzalanıb. Hələ becərmə vaxtı plantasiyaların xəstəliklərdən qorunması üçün kolxoza maddi yardım etmiş şirkət İvanovka üzümünün potensial alıcısıdır.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Müasir texnika və texnologiya daha çox və daha keyfiyyətli məhsul deməkdir

*Əvvəli 1-ci səh.*

Yüksək texnika və texnologiyalardan daha çox aqroparklarda istifadə olunur. Aqroparklar kənd təsərrüfatında iri istehsal, emal və logistik imkanlara malik sahibkarlıq növüdür. Təsadüfi deyil ki, dünyanın inkişaf etmiş ölkələrində aqroparklar sürətlə inkişaf edir. Aqroparklarda rentabellinin yüksək olması investorları da özünə cəlb edir. Hazırda dünyanın inkişaf etmiş ölkələrində banklar və qeyri-kənd təsərrüfatı sahəsində bizneslə məşğul olan sahibkarlar aqroparklara yüksək məbləğdə investisiya qoyurlar. Yeri gəlmişkən qeyd edək ki, bunun bir səbəbi də dünyada ərzaq məhsullarına tələbatın artması və onun qiymətinin yüksəlməsidir. Çünki əhali sürətlə artır, əkinçilik üçün yararlı torpaqlar isə düzgün istismar olunmadığı üçün tədricən sıradan çıxır. Bu, bir-birinə zidd olan belə məqamlar son nəticədə ərzaq məhsullarına tələbatı artırır, təklifin yüksək olması qiymətin artımına səbəb olur.

Ölkəmizdə də aqroparkların yaradılmasına dövlət səviyyəsində xüsusi qayğı var. Hazırda 30 rayonda 192 min hektar sahəyə malik 45 aqroparkın yaradılması layihəsi həyata keçirilir. Ümumi dəyəri 1 milyard manatdan çox olan aqroparklarda zəruri infrastrukturun yaradılmasına indiyədək 207 milyon manatdan çox dövlət vəsaiti xərclənib. Bundan əlavə, 111 milyon manat güzəştli kredit və dəyəri 564 milyon manat olan 25 layihəyə investisiya təşviqi sənədi verilib. Aqroparklarda 4-də birinci mərhələ üzrə işlər başa çatdırılıb. İlin sonunadək 14 aqropark istifadəyə veriləcək. Digər aqroparkların da tikilməsi istiqamətində işlər davam edir.

Son dövrlər aqrar sektora göstərilən dövlət dəstəyinin səmərəsi məhsul istehsalında və ixracında özünü göstərir. Məsələn, cari ilin yanvar-iyul aylarında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında kənd təsərrüfatı məhsullarının çəkisi digərlərinə nisbətən daha çox olub. Bu dövrdə yalnız 144 milyon dollarlıq pomidor ixrac edilib. Ümumilikdə meyvə-tərəvəz ixracı isə 101 milyon dollarlığı keçib. Həmin dövrdə 45 milyon dollarlıq pambıq lifi, 12 milyon dollarlıq pambıq ipliyi də ixrac edilib. Ötən ilin eyni dövrü ilə müqayisədə pambıq ipliyinin ixracı 32, meyvə-tərəvəzin ixracı 19 faiz artıb.

Kəmiyyətlə bərabər, kənd təsərrüfatı məhsullarının keyfiyyəti də artır. Məhz bunun nəticəsidir ki, bizim məhsullar Avropa bazarında özünə alıcı tapmaqda çətinlik çəkmir. Təkcə fındığın 25 ölkəyə ixrac olunması bunu təsdiqləyir. Amma məhsullarımızın keyfiyyəti, ekoloji cəhətdən təmizliyi bir yana, bütün hallarda belə nailiyyətlərin əldə edilməsinin əsas səbəbi dövlət tərəfindən aqrar sektora investisiyaların qoyulması və fermerlərin dəstəklənməsidir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Bakı Ali Neft Məktəbində "Beynəlxalq Müəllimlər Günü" keçirildi

5 oktyabr 2018-ci il Bakı Ali Neft Məktəbində (BANM) Beynəlxalq Müəllimlər günü münasibətilə tədbir keçirilib. Tədbirdə ali məktəbin rektoru Elmar Qasımov, professor-müəllim heyəti, əməkdaşları, tələbələri, media nümayəndələri və digər qonaqlar iştirak ediblər.





Tədbiri açan rektor Elmar Qasımov "Beynəlxalq Müəllimlər Günü" münasibətilə bütün müəllimləri təbrik edib, onlara pedaqoji və elmi fəaliyyətlərində uğurlar arzulayıb. Rektor bildirib ki, ümummilli lider Heydər Əliyev "Mən dünyada müəllimdən yüksək ad tanımıram" - deyərək Azərbaycan xalqının fədakar müəllimlərinə yüksək dəyər verib, bu dəyəri qoruyub saxlamaq və yaşatmaq isə hamımızın borcudur. Elmar Qasımov həmçinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin BANM-ın müəllimlərinə olan diqqətindən danışıb. Rektor vurğulayıb ki, bu il Neft-qaz mühəndisliyi kafedrasının dosenti Xanum Cəfərova Prezidentin Sərəncamı ilə "Tərəqqi" medalı ilə, ötən ay isə kafedranın professoru Fuad Vəliyev "Əməkdar müəllim" fəxri adı ilə təltif olunmuşdur.

Daha sonra rektor Elmar Qasımov Beynəlxalq Müəllimlər Günü və 70 illik yubileyi münasibətilə, eyni zamanda ölkəmizdə neftçi kadrların hazırlanmasında verdiyi töhfəyə görə BANM-ın Neft-qaz mühəndisliyi kafedrasının professoru Siyavuş Azakova SOCAR-ın prezidenti Rövnəq Abdullayev tərəfindən təltif edilən "Fəxri neftçi" döş nişanını təqdim edib və ona pedaqoji fəaliyyətində uğurlar arzulayıb.

Tədbirdə həmçinin təhsil sahəsindəki səmərəli fəaliyyətinə görə ali məktəbin bir qrup qabaqcıl təhsil işçisi də mükafatlandırılıb. Belə ki, uzunmüddətli, peşəkar elmi-pedaqoji fəaliyyətinə görə və 70 illik yubileyi münasibətilə professor Siyavuş Azakov, uzun müddətli, peşəkar elmi-pedaqoji fəaliyyətinə görə professor Fuad Vəliyev, professor Ziyafəddin Əsədov, Manafəddin Namazov, Erkin İbrahimov, Farad Kamyabi, Nailə Allahverdiyeva, Leyla Muradxanlı, Aziz Çankaya, Asif Qocayev, uzun illər yüksək əmək göstəricilərinə və peşəkar əmək fəaliyyətinə görə Zəfər Qurbanov, Oktay Məmmədov, Natiq Qurbanov, Könül Məhərrəmova və Şəhriyar Məmmədov Bakı Ali Neft Məktəbinin Fəxri fərmanı ilə təltif ediliblər.

Tədbirdə həmçinin "Azərkosmos" və Azərbaycan Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən "CanSat Azərbaycan 2018" müsabiqəsinin final mərhələsində 2-ci yerə çıxan BANM tələbələri rektor Elmar Qasımov tərəfindən xüsusi mükafatlandırılıblar.

Tədbir konsert proqramı ilə davam edib.

***"Azərbaycan"***

# Xızıda müəllimlərlə görüş

Oktyabrın 5-də Xızı rayon İcra Hakimiyyətinin təşkilati dəstəyi ilə Şuraabad qəsəbə tam orta məktəbində Beynəlxalq Müəllimlər Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru, pedaqoji elmlər üzrə fəlsəfə doktoru, dosent Oktay Səmədovun təhsil işçiləri ilə görüşü keçirilib.



Görüşdə Xızı Rayon İcra Hakimiyyətinin başçısının müavini, Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Arzu Əzizov, rayon təhsil şöbəsinin müdiri Oqtay Abdullayev, Şuraabad qəsəbə İnzibati Ərazi Dairəsi üzrə nümayəndə İlham İsgəndərov, Xızı Rayon Təhsil Şöbəsinin təmsilçisi İman Ağayev, Bilik Fondunun Ölkədaxili layihələr sektorunun müdiri Hacı Abdulla, Fondun Xızı rayonu üzrə nümayəndəsi Xatirə Haşımzadə, müəllim və məktəblilər, rəsmi qurumların əməkdaşları iştirak ediblər.

A.Əzizov Bilik Fondunun nümayəndələrini salamlayaraq maarifləndirici layihələrin həyata keçirilməsində əməkdaşlığın faydasından bəhs edib. Bildirib ki, gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində, dövlətə, cəmiyyətə xeyirli, savadlı kadr olaraq formalaşmasında hərtərəfli maarifləndirici tədbirlərin böyük əhəmiyyəti var, Bilik Fondunun fəaliyyəti də bu baxımdan təqdirəlayiqdir.

Tədbirdə Fondun icraçı direktoru O.Səmədovun "Maarifçilik missiyamızdır" mövzusunda mühazirəsi dinlənilib. O, ulu öndər Heydər Əliyevin "Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o, mütləq, hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır" fikirlərini xatırladaraq, dövlətin təhsilə xüsusi qayğı göstərdiyini faktlarla diqqətə çatdırıb.

Rəhbərlik etdiyi Bilik Fondunun təhsilin inkişafı istiqamətində həyata keçirdiyi layihələrdən söz açan icraçı direktor Xızı məktəblilərini, müəllmlərini bu layihələrdə daha yaxından iştirak etməyə çağırıb.

Ümummilli liderin siyasətini cənab Prezident İlham Əliyevin uğurla davam etdirdiyini deyən O.Səmədov yüzlərlə yeni məktəblərin tikildiyini, təmir olunduğunu, təhsil ocaqlarının dünya standartları səviyyəsinə çatdırıldığını, maddi-texniki bazanın möhkəmləndiyini, informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramının təsdiqləndiyini diqqətə çatdırıb.

Görüşdə cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan təhsil islahatları, Bilik Fondunun Təhsil Nazirliyi ilə birgə həyata keçirdiyi layihələr barədə iştirakçılarla fikir mübadiləsi aparılıb.

Sonda rayonun bir qrup fəal təhsil işçisinə Fondun "Təşəkkürnamə"ləri, məktəbə kitab hədiyyələri təqdim olunub.

***"Azərbaycan"***

# Yeni məktəb və gerçəkləşən köhnə arzular

## *Bölgələrdə inşa olunan modul tipli məktəblər həm şagirdləri, həm də müəllimləri çox sevindirir*

Hər kəs nə qədər çox oxusa, o qədər çox yüksələ bilir. Çünki elm və təhsil işıqlı gələcək deməkdir. Ölkəmizdə də bu işıqlı gələcək üçün təhsil sahəsində mühüm islahatlar aparılır, xüsusilə bölgələrdə şagirdlərin təhsil səviyyəsini yaxşılaşdırmaq məqsədilə müasir komplekslər ilə yanaşı, modul tipli məktəblər də tikilir. Viktor Hüqo demişkən, məktəb açan şəxs həbsxanaları bağlayar.

Elə oktyabrın 4-də Təhsil Nazirliyi tərəfindən Cəlilabad və Masallı rayonlarına təşkil olunan mediaturun məqsədi yeni inşa edilən modul tipli məktəblərlə tanışlıq və yüksək balla cari tədris ilində kəndlərdə işə qəbul olunan müəllimlərlə görüşmək idi.

### Rütubətli və şəraitsiz məktəbdə təhsilin keyfiyyəti aşağı idi

İlk ünvanımız Cəlilabad rayonu Fərzili kənd orta məktəbi oldu. Əvvəl kənd məktəbi çox bərbad halda olduğundan uşaqlar bilgi əldə etmək üçün ya qonşu kəndə, ya da rayona qədər böyük məsafə qət etməli olurmuşlar. Artıq yeni modul tipli məktəb həm şagirdlərin evlərinə yaxındır, həm də özləri demiş, çox qəşəngdir.







Fərzili kəndindəki bu məktəb 7 sinif və 1 müəllimlər otağından ibarətdir. 73 şagirdin təhsil aldığı məktəbdə 19 müəllim işləyir. Müasir avadanlıqlar və mərkəzləşdirilmiş istilik sistemi ilə təmin edilən təhsil müəssisəsində 1 məktəbəhazırlıq qrupu, 9 sinif komplekti fəaliyyət göstərir.

Məktəb direktoru Fuad Bəhramov deyir ki, əvvəlki rütubətli və şəraitsiz məktəb binasında dərslər keçilsə də, təhsilin keyfiyyətini təmin etmək mümkün deyildi: "Yeni məktəb hazır olandan şagirdlərimizin də sayında artım var. Ötən il cəmi 59 şagirdimiz vardı, indi isə burada 73 şagird təhsil alır. Məktəbəhazırlıq qrupunda isə 10 nəfər şagird var". Bu il işə başlayan 4 nəfər - fiziki tərbiyə, texnologiya, riyaziyyat və fizika müəllimləri qəbul imtahanlarında yaxşı nəticə göstərərək məhz bu məktəbi seçənlərdir.

### İndi uşaqlar dərsə daha həvəslə gəlirlər

Direktorla söhbətimizi bitirib dərs prosesini izləmək üçün sinif otaqlarına daxil oluruq. Birincilər dərs keçir. Həyat yolunda yenicə çiçəkləyən tumurcuqlar bizi görcək maraqla ətrafa baxırlar.

İbtidai sinif müəllimi Xoşqədəm Şirəliyeva artıq 15 ildir bu kənddə çalışır. İllərdir köhnə məktəb binasında çox əziyyətlər çəkdiyini deyən müəllimə indi uşaqların dərsə daha həvəslə gəldiyini təsdiqləyir.

Qəbul imtahanında yüksək bal toplayaraq kənd məktəbini seçən müəllimlərlə tanış olmaq üçün uşaqlarla sağollaşıb sinifdən çıxırıq.

Məktəbdə coğrafiya fənni üzrə tədris aparan Cəmilə İsayeva artıq iki ildir ki, bu kənddə işləyir: "Bakıdan gəlmişəm. Kənd uşaqlarını öyrətmək həmişə mənə maraqlı gəlib. Kəndlərdə cavan kadrlar azdır. Müəllimlər üçün həvəsləndirmə meyarları gənclərə kənd məktəblərini rahat seçmək üçün bir stimul oldu. Seçimimə görə peşman deyiləm. Uşaqların müəllimə göstərdiyi hörmət, dərsə olan həvəsi nəyə desən dəyər".

Müəllim Gülnar Malikqızı artıq 5 ildir ki, Fərzəli kəndində ingilis dili dərsi keçir. Ailəsi Sumqayıtda, o isə balaca qızı ilə rayonda yaşayır: "Sumqayıtdan gəlmişəm. Sinifdə olan 10 uşaqdan heç olmasa 5-i həqiqətən də oxumaq və yaxşı gələcək qurmaq istəyir. Bir problemimiz var ki, uşaqları nə qədər həvəsləndirsək də onların təhsili davam etdirməsi imkanlarına bağlıdır. Elə ailələr olur ki, onların uşaqlarını ancaq 9-cu sinfə qədər oxutmaq imkanı var. Uşaq özü deyir ki, mən doqquzuncu sinfi qurtarsam, onsuz da ailəm məni 10-11-ci sinifdə oxumaq üçün rayona göndərməyəcək. Heç olmasa yazmağı, oxumağı öyrənim. Bəzi uaqlar bu psixologiya ilə dərsə gəlirlər. Yəni valideynlərin təhsilə istəyi olsa, onda maraq, nəticəmiz daha yüksək olardı".

### Valideynlər məktəbdə verilən təhsildən razıdırlar

Müəllimlərlə sağollaşıb onlara uğurlar arzulayırıq. Məktəbəqədər hazırlıq üçün gələn balacalar sıraya düzlənib bir-bir içəri daxil olurlar.

Bayırda gözləyən Rafael Bayramov Fərzili kənd sakinidir. 4 nəvəsi bu təhsil ocağında oxuyur. Rafael Bayramov deyir ki, hazırda yaxşı şəraiti olan məktəbdə verilən təhsildən razıdırlar.

Məlumat üçün qeyd edək ki, ötən il ölkəmizin 40 bölgəsində 100 modul tipli məktəb istifadəyə verilib. Bu il isə 137 belə məktəbin istifadəyə veriləcəyi nəzərdə tutulub. Bu il Cəlilabad rayonu üzrə ümumilikdə 5 modul məktəb inşa edilib. İlin sonuna qədər daha 10 belə məktəbin tikilməsi nəzərdə tutulub.

### Kənd məktəblərini seçən gənc müəllimlər

Yüksək balla müəllimlik şərəfinə nail olan və kənd məktəblərini seçən gənc müəllimlər Masallıda da çoxdur. Bu il 87 nəfər Masallı rayonunun ümumtəhsil müəssisələrində fəaliyyətə başlayıb. Masallı ilə bağlı daha bir maraqlı fakt diqqətimizi çəkdi. Belə ki, əvvəl qızların təhsilə cəlbində problemli bölgə kimi tanınan Masallıda bu il ali məktəbə qəbul olunan 500 nəfərin 171 nəfəri, təqribən 40 faizə yaxını qızlardır. Bu da Masallıda artıq əvvəlki əngəllərin qalmadığını göstərir.

Söylədiklərimizin əyani şahidi olmaq üçün Masallı rayonu Rafiq Əlihəsənov adına 1 nömrəli tam orta məktəbə yollanırıq. Qarşımızda gördüyümüz əzəmətli bina və səliqəli həyəti ilk baxışdan məktəblə bağlı müsbət rəy yaradır. Rayonun nümunəvisi olan bu məktəbə yeni tədris ilində 6 müəllim işə qəbul olunub.

### Gənc pedaqoqlar müasir təlim metodlarından çox istifadə edirlər




57 balla bu məktəbdə tarix fənninin tədrisinə başlayan Əli Alışlı, 54 balla müəllimliyə təyinat alan kimya müəllimi Rafael Əzimov, 54 balla işə qəbul olaraq burda riyaziyyat fənni tədris edən Araz Şahverdiyev gənc kadrlardır və dərslərini yeni tədris proqramı əsasında qurur, müasir təlim metodlarından istifadə edirlər. Hər biri də dərslərin maraqlı keçdiyini və uşaqların həvəsli olduqlarını deyir.

Məktəbin direktoru Mirxanım Hüseynovanın sözlərinə görə, 2018-2019-cu tədris ilində məktəbdə 1965 şagird təhsil alır. Onlardan 238 nəfər birinci sinif, 138 şagird isə məktəbəhazırlıq qrupunda oxuyur. Builki 117 məzundan 55 nəfəri ölkənin ali məktəblərinə, 15 nəfəri isə xarici ölkələrin universitetlərinə daxil olub. 3 nəfər 600-dən, 10 nəfər isə 500-dən artıq bal toplayıb.

Bu təhsil ocağı ilə tanışlıqdan sonra Masallının Ərkivan qəsəbəsinə üz tutduq. Z.Nəcəfov adına 2 saylı tam orta məktəbin direktoru Əbülfəz Əsədov məktəbdə 539 şagirdin təhsil aldığını bildirdi: "Ötən tədris ilində məktəbi bitirən 19 məzundan 8 nəfəri ali məktəbə qəbul olub. Bu il məktəbdə 43 uşaq birinci sinfə, 38 nəfər isə məktəbəhazırlıq qruplarına cəlb edilib. Onlara dərs deyən 42 müəllimdən 6-sı gəncdir. Onlardan biri də Aytac Kazımlıdır. Bu il 50 balla yeganə vakansiyanı tutaraq ibtidai sinif müəllimi kimi fəaliyyətə başlayıb".

Qeyd edək ki, tərəqqini təmin edən təhsilə, insan tərbiyəsinə cavabdehlik daşımaq kimi böyük şərəf və məsuliyyəti üzərinə götürməyə hazır gənclərimizin sayı çoxalıb. Belə ki, 2014-cü ildə 500 və daha artıq bal toplayan 922 nəfər müəllimlik ixtisasını seçmişdisə, 2017-ci ildə bu rəqəm 1370 nəfər olub.

Bu il keçirilən qəbul imtahanlarında iştirak edərək 500 və daha artıq bal toplayan məzunlar arasında isə müəllimlik ixtisasını 2090 nəfər seçib. Bu göstərici 2014-2015-ci tədris ilinə nisbətən 2,3 dəfə və ya 126,7 faiz, ötən ilə nisbətən isə 1,5 dəfə və ya 53,6 faiz artım deməkdir.

Xatırladaq ki, 2018-2019-cu tədris ili üçün müəllimlərin işə qəbulu üzrə müsabiqədə iştirak üçün 50 minə yaxın namizəd elektron ərizə ilə müraciət edib, 5 mindən artıq namizəd müəllim adını qazanaraq işə qəbul olunub. Ötən illərlə müqayisədə müəllim işləmək arzusunda olanların sayında 3 dəfə artım müşahidə olunub.

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

# Tabor komandirlərinin toplanışı keçirilir

Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq, tabor və divizion komandirləri, o cümlədən qərargah rəisləri ilə toplanışlar keçirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, toplanışda zabitlərin bilik və praktiki vərdişləri qiymətləndirilir, həmçinin müasir ümumqoşun döyüşünün aparılması üzrə nəzəri bilikləri yoxlanılır.

Şəxsi heyət rəhbər sənədləri bilmələri üzrə test, atəş, taktiki-xüsusi və fiziki hazırlıq, eləcə də döyüş maşınlarının idarə olunması üzrə məqbullar verir.

# Gənclər və idman naziri Cəlilabadda vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov oktyabrın 5-də Lənkəran, Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı şəhər və rayonlarının sakinlərini qəbul edib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Cəlilabad rayonundakı Heydər Əliyev Mərkəzində keçirilən qəbulda 20-yə yaxın vətəndaşın gənclər, idman və digər məsələlərlə bağlı müraciətləri dinlənilib.

İdman sahəsi üzrə müraciətlər əsasən fəxri adların verilməsi, idman mərkəzlərinin lazımi avadanlıqla təmin olunması, yeni Olimpiya İdman komplekslərinin, idman mərkəzlərinin tikintisi və təmiri, Uşaq Gənclər və İdman mərkəzlərinin (UGİM) və bölmələrinin yaradılması, idmançıların beynəlxalq yarışlarda iştirakı və s. məsələləri əhatə edib.

Gənclər sahəsi üzrə müraciətlər isə qeyri-hökumət gənclər təşkilatlarının yaradılması, gənclərlə bağlı müxtəlif layihələrin maliyyələşdirilməsi, gənclərin beynəlxalq layihələrdə iştirakı, yay-qış istirahət düşərgələrinin təşkili, Gənclər mərkəzlərinin fəaliyyəti və müvafiq avadanlıqla təminatı ilə bağlı olub.

Qəbulda bir sıra müraciətlər yerindəcə həllini tapıb. Araşdırılması tələb edilən məsələlər isə aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.

# Atəşkəs rejimi 30 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Şıxlar, Baş Qərvənd, Novruzlu, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# İqtisadi xəbərlər

## Yeni zavodların məhsullarının çox hissəsi ixrac olunacaq

"SOCAR Polymer" layihəsinə illik istehsal gücü 184 min ton olan Polipropilen zavodu və ildə 120 min ton yüksəksıxlıqlı polietilen istehsal edən müəssisə daxildir.

Xatırladaq ki, bu il iyulun 18-də Sumqayıt Kimya Sənaye Parkının ərazisində "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən Polipropilen zavodunun açılış mərasimində Prezident İlham Əliyev və İtaliya Prezidenti Sercio Mattarella iştirak etmişlər. Yüksəksıxlıqlı Polietilen zavodunun cari ilin dekabr ayında istismara verilməsi nəzərdə tutulur.

"SOCAR Polymer" MMC-nin baş direktoru Fərid Cəfərov jurnalistlərlə söhbətdə bildirib ki, zavodların məhsullarının əksər hissəsi ixrac olunacaq, 35-40 faizi daxili tələbata yönəldiləcək. Onun sözlərinə görə, bu zavodların ildə 350 milyon dollarlıq məhsul satacağı gözlənilir. Məhsulların təxminən 75-80 faizinin ixrac olunacağını deyən F.Cəfərov bildirib ki, Türkiyə və Rusiyadan ilkin təkliflər artıq alınıb.

## "SOCAR Gürcüstanın təbii qaz bazarında əsas iştirakçıdır"

"SOCAR Gürcüstanın təbii qaz bazarında əsas iştirakçıdır. Düşünürəm ki, bu əməkdaşlıq bundan sonra da uzun müddət uğurla davam edəcək".

Bu sözləri SOCAR-ın Gürcüstan nümayəndəliyinin müşaviri Mariam Valişvili ölkəsinin qaz bazarı ilə bağlı Tbilisidə keçirilən konfransında söyləyib.

Gürcüstanın təbii qaza olan tələbatı, ölkənin qazlaşdırma siyasəti və bu sahədə həyata keçirilən islahatlardan danışan M.Valişvili bildirib ki, SOCAR Gürcüstan reallığına cavab verən bütün qaydaları yerinə yetirməyə hazırdır.

"SOCAR Gürcüstanın təbii qaz bazarını tərk etmək niyyətində deyil. Bizim qaz bazarında həyata keçiriləcək yeni tənzimləmələri tətbiq etmək bacarığımız var. SOCAR rəqabətə hazırdır", - deyə M.Valişvili vurğulayıb.

Xəbəri AZƏRTAC yayıb.

## Fermerlərin aşağı faizli kreditlərə çıxışı asanlaşır

Aqrar fəaliyyətlə məşğul olan fermerlərin güzəştli kredit əldə etməsi üçün banka getməyə daha ehtiyac qalmayacaq. Fermerlər internet üzərindən "onlayn" müraciət etməklə kredit əldə edə bilərlər.

Bu barədə məlumat verən Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidmətinin rəisi Mirzə Əliyev bildirib ki, bununla bağlı Dövlət Xidmətinin saytında yeni platforma yaradılıb. Sistemdə maliyyə vəsaitinə ehtiyacı olan fermerlərin elektron formada göndərdikləri müraciətlər seçdikləri müvəkkil kredit təşkilatı tərəfindən də izlənilir. Layihənin qiymətləndirilməsi aidiyyəti qurumla birgə paralel aparılır. Bu da əlavə vaxt itkisinin qarşısını alır, sənədləşmə xərclərini azaldır və şəffaflığı təmin edir. Müraciət forması "Asan İmza" vasitəsilə həyata keçirilir.

Onu da qeyd edək ki, kreditlərin məbləği Nazirlər Kabinetinin müvafiq qərarı ilə tənzimlənir. Belə ki, 5 ilə verilən kreditin maksimim məbləği 200 min manat, orta faiz dərəcəsi illik 5 faizdir.

# "Ənənəvi islami dəyərlər dini ekstremizmə qarşı" mövzusunda tədbir keçirilib

Oktyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təşkilatçılığı və Nəsimi Rayon İcra Hakimiyyətinin dəstəyi ilə "Ambassador" mehmanxanasında "Ənənəvi islami dəyərlər dini ekstremizmə qarşı" mövzusunda tədbir keçirilib.





Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Gülarə Verdiyeva tədbiri açaraq, ölkədə dini maarifləndirmə, ekstremizm əleyhinə təbliğat istiqamətində görülən işlərdən danışıb.

Bilik Fondunun aparat rəhbəri, professor İsaxan Vəliyev "Dini ekstremizmə qarşı mübarizə islami dəyərlərin mühafizəsinin təminatı kimi" mövzusunda mühazirə ilə çıxış edərək milli-mənəvi dəyərlərin, o cümlədən, ənənəvi islami dəyərlərin mühafizəsinin konstitusiyon-hüquqi əsaslarını diqqətə çatdırıb, "Dini ekstremizmlə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun bir sıra müddəalarını şərh edib. İslam dininə aid ayin və mərasimlərin aparılması hüququnun Azərbaycan vətəndaşlarına mənsub olduğunu xatırladan aparat rəhbəri xaricdə dini təhsil almış vətəndaşların bu qəbildən olan tədbirlərdə iştirakının Qafqaz Müsəlmanları İdarəsi tərəfindən müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırıldıqdan sonra mümkün olduğunu vurğulayıb.

Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin şöbə müdiri, Bilik Fondunun Lektorlar Qrupunun üzvü Nahid Məmmədov "Dini ekstremizmə qarşı mübarizə milli-mənəvi dəyərlər kontekstində" mövzusunda mühazirə söyləyib. Mühazirəçi bildirib ki, xalqımızın milli-mənəvi dəyərləri bütün növ ekstremizmə qarşıdır. Dəyərlərin bəzi məkrli insanlar tərəfindən təhrif olunması çaşqınlıq yaradır. İslam dini zorakılığı, başqalarının azadlığını pozmaq cəhdlərini qəbul etmir. İslam sülhsevər dindir, onun daşıyıcıları da sülhpərvər insanlardır. Ölkəmizdə dinlə dövlət ayrı olsa da, bir-birinə daim dəstək olub. Məhz bu baxımdan Azərbaycan multikulturalizmi dünyaya nümunədir.

N.Məmmədov gəncləri aqressiv münasibət sərgiləməkdən çəkinməyə və daim sağlam bilgilər əldə etməyə çağırıb.

***"Azərbaycan"***

"Bakı Metropoliteni" QSC Binəqədi rayonu, Xocasən Sağlamlıq Mərkəzinin ərazisində və "Bakmil" stansiyasının qarşısında abadlıq işlərinin satın alınması üzrə

*AÇIQ TENDER ELAN EDİR*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 20-dən (əlaqələndirici şəxs: Zakir Hacıyev, telefon: 490-00-91) ala bilərlər.

**LOT-1.** "Bakı Metropoliteni" QSC-nin "Binəqədi rayonu, Xocasən Sağlamlıq Mərkəzinin ərazisində və "Bakmil" stansiyasının qarşısında abadlıq işlərinin satın alınması

**İştirak haqqı - LOT-1 - 300 manat**

| | |
|---|---|
| **Hesab:** | **AZ98AZRT38050019440010268002** |
| **VÖEN:** | **1402871431** |
| **Bank:** | **AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)** |
| **Kod:** | **501361** |
| **VÖEN:** | **9900006111** |
| **M/H:** | **AZ02NABZ01350100000000022944** |
| **S.W.İ.F.T:** | **AZRTAZ22** |

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 8 noyabr 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 19 noyabr 2018-ci il saat 17:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi, 20 ünvanına "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 20 noyabr 2018-ci il, saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***TENDER KOMİSSİYASI***

# Yeni hakimiyyət, köhnə rejim

## Baş nazir Ermənistanı tənəzzül və siyasi xaosa sürükləyir

Ermənistanda baş verən son hadisələr burada gərginləşməkdə olan ictimai-siyasi durumun daha qanlı sonuclara gətirib çıxara biləcəyini istisna etmir. Əsas səbəb də budur ki, baş nazir Nikol Paşinyan rəqiblərini sıradan çıxarmaq üçün daha sərt və repressiv addımlara üstünlük verməyə başlayır. Bu da öz növbəsində təkcə müxalifətdə yox, elə bütün cəmiyyətdə narazılıq yaradır, qarşıdurma əhval-ruhiyyəsini yüksəldir.

### "Paşinyan heç bir siyasi proqrama malik deyil"

Erməni siyasətçi Paruyr Ayrikyan belə vəziyyətin yaranmasını onunla izah edir ki, Nikol Paşinyanın yekun hədəfi yoxdur və heç bir siyasi proqrama malik deyil. O, eks-prezident Levon Ter-Petrosyanla Nikol Paşinyan arasında paralellər aparıb: "Hərəkat başlayanda Paşinyan növbədənkənar seçki ilə bağlı müəyyən bəyanatlar yaydı, amma indi tamam başqa şeylər deyib seçkinin dekabrda keçirilməsi gərəkliyini vurğulayır. Bu, daha çox Ter-Petrosyanın davranış stilini xatırladır. Bütün siyasi qüvvələr Konstitusiyaya tam uyğun şəkildə hərəkət etməlidirlər".

Siyasətçi həmçinin Paşinyan və tərəfdarlarının parlamentə hücumunu da pisləyib: "Yekun olaraq bura parlamentdir. Buradakılar fərqli qərar və qanunlar qəbul edə bilərlər və biz onlarla razılaşmaya bilərik, amma parlamentə belə hücum olmaz. Aydındır ki, parlament özünü buraxmaq istəmir və burada qəbul edilən qanun öz təhlükəsizliklərinin təminatı üçün idi".

Ayrikyan inqilab zamanı Paşinyanı aktiv müdafiə etdiyini, amma indi bu fikrini dəyişdiyini bildirib: "Mən özüm də parlamentin buraxılmasının tərəfdarıyam. Paşinyanın son bəyanatı heç bir hüquqi və mənəvi əsası olmayan diktator bəyanatı idi. Paşinyan çox sayda islahat və dəyişikliklərlə bağlı vəd verib. O, diaspora da vədlər verib. İndi bu vədlərə əməl edilməsə, o zaman Paşinyan hər kəsi aldatmış olacaq. Əgər əvvəllər o, Serj Sarkisyana qarşı mübarizə aparırdısa, indi faktiki olaraq, Sarkisyanın siyasətini davam etdirir. Diktatorların özlərinə daim mübarizə aparacaqları düşmən yaratmaq xüsusiyyətləri var. Bununla, Paşinyan Ermənistanda siyasi böhranı dərinləşdirmək yolunu tutur".

### Altı qubernator vəzifədən uzaqlaşdırılıb

Nikol Paşinyan isə ona verilən tövsiyələrə qətiyyən əhəmiyyət verməyərək rəqiblərini administartiv yolla sıradan çıxarmağa davam edir. Son məlumatlara görə, o, növbədənkənar parlament seçkilərinin keçirilməsi məsələsində ona xəyanət edərək Respublika Partiyası ilə birləşən "Çiçəklənən Ermənistan" və "Daşnaksütyun" partiyalarının təmsilçisi olan qubernatorları vəzifədən uzaqlaşdırıb.

Qərara əsasən, Araqaçotn əyalətinin qubernatoru Aşot Simonyan, Lori əyalətinin qubernatoru Qrant Marqaryan, Vayoçdzor əyalətinin qubernatoru Araqaç Saqatelyan, Armavir əyalətinin qubernatoru Qaqik Miricanyan, Qeqarkunik əyalətinin qubernatoru İşxan Saqatelyan və Sünik əyalətinin qubernatoru Karen Ambarçumyan işdən çıxarılıb.

Xatırladaq ki, "Çiçəklənən Ermənistan" və "Daşnaksütyun" partiyalarının təmsilçisi olan qubernator və nazirlərin işdən qovulması barədə qərar Paşinyan tərəfindən 2 oktyabr tarixində Ermənistan parlamenti önündə keçirilən mitinqdə verilib. Nəticədə adı çəkilən partiyaların nümayəndələri olan 6 nazir vəzifədən uzaqlaşdırılıb. Onların yerinə Paşinyana yaxın insanlar gətirilir.

### Ölkə daha sürətlə uçuruma yuvarlanır

Paşinyanın kadrları ölkəni daha sürətlə uçuruma yuvarlayırlar. Rəsmi səviyyədə verilən açıqlamalardan bəlli olur ki, Paşinyanın onu dəstəkləyən xalqa iqtisadi inkişaf, sosial rifahla bağlı dediklərinin heç biri reallaşmayacaq.

Ermənistanın maliyyə naziri Atom Cancuqazyan 2019-cu maliyyə ili üçün dövlət büdcəsi layihəsini təqdim edərkən verdiyi açıqlamalar göstərir ki, əhalinin maddi gəlirlərin artacağına dair ümidləri əbəs imiş. Cancuqazyan bunu belə izah edir: "Əgər ölkədə əməkhaqları və digər müavinətlərin əsassız artımı baş verəcəksə, bu, Ermənistanda yoxsulluq göstəricilərini daha da pisləşdirəcək. Əgər biz öz imkanlarımız hesabına əməkhaqları və müavinətləri artıra bilməsək, onda bunu etməyin yeganə yolu xaricdən borc götürməkdir. Amma belə addıma heç cür haqq qazandırıla bilməz. Çünki yenə borc götürsək, bu, Ermənistanda yoxsulluq həddini daha da qaldıracaq".

Cancuqazyan bununla belə, vurğulayıb ki, Yerevan bundan sonra da borc götürməyə davam edəcək. Çünki dövlət büdcəsi bir sıra ödənişlərin həyata keçirilməsinə kifayət etmir: "Bəli, xaricdən borc götürəcəyik, amma məsələ ondadır ki, bunun ölkədəki vəziyyəti yaxşı, yaxud pisə doğru aparacağı bəlli deyil. Əgər borc alınırsa, onun gələcəkdə ödənilməsi lazımdır. Bunun üçün gərək vergilər artırılsın".

### Dövlət borcunun daha da artacağı proqnozlaşdırılır

Erməni mediası Cancuqazyanın bu çıxışını bir növ xalqa təhdid kimi qiymətləndirib. Bildirilir ki, vergilərin artacağı ilə bağlı xəbərdarlıq etməklə Paşinyan hökuməti gələcəkdə maaşların azlığı barədə əhalinin tələblərinə qarşı indidən preventiv üsullara baş vurur. Çünki "iqtisadi bum", işsizlik və yoxsulluğun aradan qaldırılacağına dair vədlər verərək baş nazir postuna gələn Nikol Paşinyan 5 aydır hakimiyyətdə olmasına rəğmən, bu sahələrdə ciddi islahatlar apara bilməyib və vaxtının çoxunu siyasi rəqiblərilə mübarizəyə həsr edib. Belə davam edərsə, vədlərin icra edilməməsi nəticəsində gələcəkdə yaranacaq iqtisadi çətinliklər xalqın etirazını labüd edəcək.

Qeyd edək ki, rəsmi statistikaya əsasən, Ermənistanın dövlət borcu 7 milyard dollara yaxınlaşır. Belə görünür ki, Paşinyanın dönəmində bu borcun həcmi daha da artacaq. Əvəzində isə erməni əhalisinin sosial rifah halı indikindən də pis olacaq. Eyni zamanda, digər müstəvilərdə də bu ölkə yalnız ziddiyyətlər və qarşıdurmalar burulğanında tənəzzülünü davam etdirəcək.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Biz səninləyik!

## *2568 uşaq problemlərinin həlli üçün "Azercell"in "Uşaq Qaynar Xətt Xidməti"nə müraciət edib*

"Azercell Telekom" MMC-nin dəstəyi ilə fəaliyyət göstərən "Azərbaycan Uşaq Qaynar Xətt Xidməti" bu ilin 9 ayı üçün hesabatını açıqlayib.

Ailədə zorakılığa məruz qalan, həmyaşıdları ilə problem yaşayan, psixoloji və mənəvi yardıma ehtiyacı olan uşaqlara dəstək olmaq, onlara problemlərinin həllinin tapılmasında, sosial mühitə uyğunlaşmalarına yardım etmək məqsədi daşıyan "Uşaq Qaynar Xətti Xidməti"nə 2018-ci ilin yanvar-sentyabr aylarında 2568 müraciət daxil olub. Daxil olan zənglərin 27-si psixoloji, 45-i hüquqi, 240-ı təhsil (49 Dövlət İmtahan Mərkəzi, 166 Təhsil Nazirliyi, 25 bağça), 17-si səhiyyə, 14-ü sosial, 31-i isə digər sahələrə aid edilib. Məktəbdə müəllimləri, evdə valideyləri tərəfindən zorakılıqla üzləşən uşaqlar Uşaq və Gənclərin Sosial Reabilitasiya Mərkəzinə psixoloji reabilitasiya keçmək üçün yönləndirilib. Eyni zamanda psixoloji problemləri olan, valideynlərinin ayrılığını çətin yaşayan yeniyetmələrə kömək üçün Uşaq Hüquqları klinikasına müraciət edilib. Hüquqi və sosial çətinliklər yaşayan uşaqların probleminin həlli istiqamətində rayon icra hakimiyyətləri ilə görüşlər təşkil edilib.

Daxil olan zənglər üzrə aparılan təhlillərdən bəlli olub ki, uşaqlarda baş verən narahatlıqların, psixoloji problemlərin əsas səbəbi valideynlərin bu istiqamətdə maariflənməsinin zəif olmasıdır. Eyni zamanda müraciət edənlər arasında şəxsiyyətlərarası münaqişələrdən əziyyət çəkənlər də çoxluq təşkil edir. Xidmət göstərdiyi 8 il ərzində "Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinə müxtəlif problemlərlə bağlı ölkənin bir çox şəhər və rayonundan uşaqlar və gənclər, habelə valideynlər tərəfindən 32 000-dən artıq zəng daxil olub.

***"Azərbaycan"***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

### ABŞ-ın vitse-prezidenti Çini seçkilərə müdaxilədə ittiham edir



ABŞ-ın vitse-prezidenti Maykl Pens Çini ABŞ-ın daxili işlərinə müdaxilədə və Prezident Donald Trampa qarşı məqsədyönlü fəaliyyətdə ittiham etmişdir. Bu barədə "Rosbalt" agentliyi xəbər verir.

Pens Vaşinqtonda Hadson İnstitutunda çıxışı zamanı bildirmişdir ki, Çin Xalq Respublikası ictimai rəyə, habelə bu il keçiriləcək aralıq seçkilərinə və 2020-ci il ABŞ prezidenti seçkilərinə təsir göstərmək istəyir. Onun dediyinə görə, Pekin "Amerikada başqa Prezidentin olmasını arzulayır".

Öz növbəsində ÇXR Xarici İşlər Nazirliyinin nümayəndəsi Xua Çunyin bildirmişdir ki, ABŞ-ın vitse-prezidenti Maykl Pens ölkəsini şərləyir və ona qarşı əsassız ittihamlar irəli sürür.

### Əfqanıstanda taliblər 8 polisi öldürdülər



Əfqanıstanın şimalında yerləşən Samanqan əyalətindəki polis məntəqəsi taliblərin hücumuna məruz qalmışdır. Nəticədə 8 asayiş keşikçisi həlak olmuş, 8-i yaralanmışdır. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

Samanqan qubernatorluğunun nümayəndəsi Məhəmməd Əzizinin dediyinə görə, hücum Dere-i Sufun Balqari kəndində baş vermişdir.

Qeyd edək ki, son vaxtlar bu, taliblər tərəfindən polis məntəqəsinə edilən üçüncü hücumdur.

### Nobel sülh mükafatının laureatları bəlli oldu





2018-ci il Nobel sülh mükafatı konqolu Denis Mukvege və iraqlı hüquq müdafiəçisi Nadya Murada verilmişdir. Bu barədə "Alman dalğası" radiostansiyası xəbər verir.

Mükafatın Osloda yerləşən təşkilat komitəsinin məlumatında qeyd edilir ki, Mukvege və Murad müharibələr və silahlı münaqişələr zamanı seksual zorakılıqdan silah kimi istifadənin dayandırılması istiqamətində səylərə görə mükafata layiq görülmüşlər. Hər iki laureat diqqətin hərbi cinayətlərə və onlarla mübarizəyə yönəldilməsinə həlledici töhfə vermişdir.

Xatırladaq ki, ötən il Nobel sülh mükafatı "Nüvə silahının ləğv olunması üzrə beynəlxalq kampaniya" (İCAN) təşkilatına verilmişdir. 2016-cı ildə isə mükafatı Kolumbiya Prezidenti Xuan Manuel Santos almışdır.

### CAR-da dəmir yolu qəzasında 320 sərnişin yaralandı

Cənubi Afrika Respublikasında iki qatarın toqquşması nəticəsində azı 320 sərnişin yaralanmışdır. Bu barədə yerli SABC telekanalı xəbər verir.

Məlumata görə, hadisə gecə saatlarında Yohannesburq şəhərinin şərqində baş vermişdir. Pretoriyaya gedən qatar Kempton-Park şəhərinin dəmir yolu stansiyasında dayanan digər qatarı vurmuşdur. 32 sərnişinin vəziyyətinin ağır olduğu bildirilir.

### Vaşinqtonda etiraz nümayişində 302 nəfər saxlandı

Vaşinqtonda Brett Kavanonun ABŞ Ali Məhkəməsinə namizədliyinə qarşı etiraz aksiyasında iştirak edən 302 nəfər saxlanılmışdır. Bu barədə yerli polis idarəsinin məlumatına istinadən TASS agentliyi xəbər verir.

293 nəfər Senatın binasının daxili həyətində razılaşdırılmamış aksiya keçirdiyinə görə saxlanmışdır. Onlara qarşı Vaşinqtonun mitinqlər barədə qanunvericiliyini pozmaq ittihamı irəli sürülmüşdür. Belə ki, ABŞ Konqresi kompleksinin binalarında nümayiş keçirməyə icazə verilmir. Son məlumata görə, tutulanlar şəxsiyyətləri müəyyənləşdirildikdən sonra azadlığa buraxılmışlar.

Xatırladaq ki, Senatın binasının qarşısına toplaşmış minlərlə amerikalı əxlaqsız hərəkətlərdə ittiham olunan Brett Kavanonun ABŞ Ali Məhkəməsinə seçilməsinə etiraz etmişdi. Kavanonun namizədliyini Ağ evin başçısı Donald Tramp irəli sürmüşdür.

# Külli miqdarda narkotik vasitə qanunsuz dövriyyədən çıxarılmışdır

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən sərhəd mühafizəsinin etibarlı təminatı sahəsində tədbirlər davam etdirilir.

30 sentyabr 2018-ci il tarixdə DSX əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində külli miqdarda narkotik vasitənin qanunsuz dövriyyədən çıxarılmasına nail olunmuşdur. Həmin tarixdə saat 03:10 radələrində alınmış əməliyyat məlumatı əsasında DSX-nin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində, Yardımlı-Arus kəndi istiqamətində əməliyyat-axtarış tədbiri həyata keçirilmiş, "VAZ-2107" markalı 90-BB-979 və "Mercedes" markalı 90-BK-471 dövlət qeydiyyat nömrə nişanlı avtomobillər baxış keçirilməsi üçün saxlanılmışdır.

Saxlama zamanı "Mercedes" markalı avtomobil tabesizlik göstərmiş və Masallı rayon istiqamətində hərəkət edərək 1 kq narkotik maddəni əraziyə atmışdır. Qarşılıqlı əlaqədə olan Masallı rayonu polis şöbəsinin əməkdaşları tərəfindən həmin avtomobil saxlanılmış, avtomobildə olan 1 nəfər şəxs polis əməkdaşlarının qanuni tələblərinə məhəl qoymayaraq meşəlik əraziyə qaçmışdır.

Əraziyə və avtomobillərə baxış zamanı 8600 qram "heroin" və "tiryəkə" bənzər narkotik maddə aşkar olunmuşdur. Saxlanılmış vətəndaşların şəxsiyyətləri dəqiqləşdirilmiş, onların Yardımlı rayon sakinləri 1974-cü il təvəllüdlü Habil Yaşılxan oğlu Şirbəyev, 1983-cü il təvəllüdlü Zaur Camalxan oğlu Qurbanov və Salyan rayon sakini 1993-cü il təvəllüdlü Malik İlyas oğlu Ağayev olmaları müəyyən edilmişdir. Hadisə yerindən qaçmış 4-cü şəxsin axtarışı üzrə müvafiq tədbirlər həyata keçirilir.

Hadisə ilə əlaqədar DSX-nin istintaq və təhqiqat idarəsi tərəfindən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılmışdır. Zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***"Azərbaycan"***

**ALLAH RƏHMƏT ELƏSİN!**

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin rəhbərliyi və kollektivi "Azdövsutəslayihə" İnstitutunun direktoru Elbrus Paşayevə əzizi

**PÜSTƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC "Azdövsutəslayihə" İnstitutunun kollektivi institutun direktoru Elbrus Paşayevə əzizi

**PÜSTƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8406
Sifariş 2877